informasiyanın alınmasını tələb edir. Ölçmələrin məhsuldarlığına qoyulan bu tələb isə onların yüksək səviyyədə avtomatlaşdırılmasını zəruri edir. Kütləvi ölçmələrin yerinə yetirilməsi tələbi ölçmə, informasiyanın yığılması, çevrilməsi, emal edilməsi, ötürülməsi və s. proseslərini avtomatlaşdırmaqdan əlavə, həm də ölçmə sistemlərinin funksional imkanlarının genişləndirilməsini zəruri edir. Kompüterlərin, mikrokontroller və mikroprosessorların ölçmə vasitələrinin tərkibinə daxil edilməsi, alqoritmləşdirmə və proqramlaşdırma üsullarının inkişafı ölçmə vasitələrinin intellektual imkanlarının artırılmasına şərait yaratmışdır. İntellektual çevirici və ya vericilərin informasiya-ölçmə sistemlərinin tərkibinə daxil edilməsində məqsəd fiziki kəmiyyətlərin ölçmə dəqiqliyini artırmaq, hesablama imkanlarının səmərəli paylanmasını təmin etmək, ölçmə sisteminin intellektual imkanlarını genişləndirmək, ölçmə sisteminin etibarlılığını və çevikliyini yüksəltməkdən ibarətdir [32, s.16].

Konstruktiv olaraq sensorlar əsasən həssas elementlərdən və analoq funksional sxemlərdən ibarət olur [1, s.15].

Analoq funksional sxemlərin tərkibinə analoq siqnal formalaşdırıcıları (SFS) və analoq emaletmə sxemləri daxildir.

Həssas elementlər ölçülən kəmiyyəti qəbul edir və onu əvvəlcə mexaniki kəmiyyətə, sonra isə bir qayda olaraq, elektrik kəmiyyətinə çevirir.

Membranlı təzyiq sensorunda təzyiqin təsirindən membranın əyilməsi nəticəsində onun mərkəzi yerini dəyişir, yəni ölçülən təzyiq yerdəyişmə parametrinə (mexaniki kəmiyyət) çevrilir. Sonra membranın mərkəzinin yerdəyişməsi onun səthinə tozlandırılmış tenzomüqavimətin müqavimətinin dəyişməsinə (elektrik kəmiyyəti) çevrilir. Analoq çıxışlı ən sadə vericilərdə yalnız həssas element olur [33, s.39]. Daha çox yayılmış mürəkkəb vericilərdə isə həssas elementdən əlavə, həm də siqnal formalaşdırıcı sxemlər mövcuddur. Həssas elementin analoq funksional sxemi ilə birgə hazırlanması nəticəsində analoq çıxışlı inteqrallaşdırılmış vericilər yaradılmışdır. Daxilində analoq rəqəm çeviriciləri olan vericilərin çıxışında rəqəm siqnalı alınır. İneqrallaşdırılmış vericilərin daxilinə analoq rəqəm çeviriciləri, mikroprosessor və mikrokontrollerlərin yerləşdirilməsi ilə intellektual vercilərin yaradilmasının əsası qoyulmuşdur. Belə sensorlar çıxış siqnalı əsas kompüterdə

sonrakı emal və icra mexanizmlərinin idarə edilməsi üçün əlverişli olur. Sensorların intellektuallaşdırılması elektrik kəmiyyətini həssas elementdən qəbul edən, onu elektrik siqnalına çevirən və sonra rəqəmli emal edən ixtisaslaşdirilmış xüsusi funksional blokların köməyi ilə yerinə yetirilir. İntellektual vericilər ölçmə vasitələrinin yeni nəsli sayılır və analoq vericilərdən mərkəzi prosessorla bilavasitə əlaqə və ölçmə nəticələrinin rəqəm şəklində emal imkanlarının olması ilə fərqlənir. Beləliklə, intellektual sensorlar, ümumi halda, qida mənbəyindən, ölçülən kəmiyyətin çeviricisindən, siqnalların rəqəm formasında emal edilməsi üçün daxilə yerləşdirilmiş hesablama vasitələrindən, parametrləri identifikasiya sxemindən və sistemin digər funksional bloklar ilə birləşdirilməsi üçün interfeys sxemindən ibarətdir. İntellektual sensorların struktur sxemi şəkil 1.2.5-də verilmişdir [1, s.21].



Şəkil 1.2.5. İntellektual sensorların struktur sxemi

Ölçmə kanalına obyektdə qoyulan və onun fiziki parametrlərini (temperatur, təzyiq, nəmlik, özlülük, konsentrasiya, sıxlıq və s.) qəbul edib elektrik siqnalına çevirən sensorlar, analoq siqnal formalaşdıran sxemlər (kommutatorlar, analoq siqnalları seçib yadda saxlayan sxemlər, normallaşdırıcı çeviricilər), siqnal ötürücüləri, qəbuledicilər, rabitə xətti, analoq rəqəm çeviriciləri, mikrokontroller, ətraf qurğuları ilə birlikdə əsas kompüter (klaviatura, printer, displey və s.) daxildir. Nəticədə, sensorların intellektuallaşdırılması mümkün olmuşdur. Bu tip sensorlar özünüdiaqnostika, özünükalibrləmə, xəttiləşdirmə, siqnalları süzgəcləmə funksiyalarını yerinə yetirir [28, s.270].

İntellektual informasiya-ölçmə və idarəetmə sisteminin struktur sxemi şəkil 1.2.6-da göstərilmişdir [1,s.29].



Şəkil 1.2.6. İntellektual informasiya-ölçmə və idarəetmə sisteminin struktur sxemi

Robotlaşdırılmış nəzarət və diaqnostika sistemlərində obyektlər çox hallarda avtomatik olaraq təyin edilir, seçilir, nəzarət mövqeyinə qoyulur və uyğun intellektual funksiyaların yerinə yetirilməsi lazım gəlir. Temperaturu ölçən informasiya sistemi 3 ədəd TCM-277-01 tipli temperatur sensorundan (termomüqavimət), 1 ədəd Kp590KH6 tipli 8 girişli kommutatordan, Ş79 tipli unifikasiya (normallaşdırıcı) çeviricidən, K11113PV1 tipli 10 mərtəbəli analoq-rəqəm çeviricisindən, K1816VE51 tipli proqramlaşdırıla bilən universal kontrollerdən, informasiyanı təqdim edən rəqəm göstərici qurğudan (K9Q), RAVİ-800 tipli hərf-rəqəm çapetmə qurğusundan ibarətdir. Termomüqavimət elektrik dövrəsinə qoşulur və ətraf mühitlə istilik mübadiləsində olur. Termomüqavimətin materialına müqavimətin temperatur əmsalının mümkün qədər böyüklüyü, ətraf mühitin təsirinə kimyəvi dayanıqlığı, kifayət qədər möhkəmliyi, böyük xüsusi

elektrik müqaviməti kimi tələbatlar qoyulur. Termomüqavimətlər əvvəlcədən qızdırılmayan və çox qızdırılan növlü olurlar [22, s.243]. Əvvəlcədən qızdırılmayan çeviricilərdə rezistordan axan cərəyan onu qızdırmır və termorezistorun temperaturu mühitin temperaturu ilə müəyyən olunur. Bu cür termomüqavimətlər temperaturu ölçmək üçün istifadə olunur. Çox qızdırılan çeviricilərdə cərəyanın yaratdığı qızdırılma mühitin xassələrindən asılı olur. Temperaturu ölçən informasiya sisteminin struktur sxemi şəkil 1.2.7 (a)-da və PIC18F452 mikrokontrolleri əsasında temperaturu ölçən intellektual sistemin struktur sxemi şəkil 1.2.7 (b)-də göstərilmişdir.



Şəkil 1.2.7 (a) Temperaturu ölçən informasiya sisteminin strukturu



Şəkil 1.2.7 (b)Temperaturu ölçən intellektual sistemin struktur sxemi

Temperaturu ölçən intellektual sistemin struktur sxemində [6, s.106] T_1-T_m – Metran-286 temperatur vericisi, MK, MK_1 və MK_m – PIC18F452 mikrokontrolleri, Aİ, $Aİ_1$ və $Aİ_m$ – RS 485 ardıcıl interfeysi, E – ekran örtüklü kabel, UÇ – MAX 232-uzlaşdırıcı (uyğunlaşdırıcı) çevirici, Rİ – rəqəmsal indikator, FK – fərdi kompüterdir.

Temperaturu ölçmək üçün əsasən kontaktlı və kontaktsız metodlardan istifadə olunur. Birinci qrup metodlarda istiliyin ötürülməsi kontakt yolu ilə istilikvermə prinsipinə əsaslanır. Kontaktsız ölçmə metodları istiliyin şüalanma yolu ilə ötürülməsinə əsaslanır və əsasən optik pirometrlərdə istifadə edilir [21, s.42]. Bu çeviricilər yalnız temperaturu ölçmək üçün deyil, həmçinin yerdəyişmə və ölçüləri, maye və qaz maddələrin sürət və sərfini, qazların kiçik konsentrasiyalarını, nəmliyi ölçmək və hətta qaz qarışıqlarının kimyəvi analizi üçün istifadə olunur. Bütün bu hallarda istilik prosesləri gedişinin mühitin istilik keçiriciliyi, istilik mübadiləsi səthinin sahəsi, mühitin hərəkət sürəti, istilik keçirici mühitin konsentrasiyası və s. faktorlardan asılılığından istifadə olunur. Bu cür çeviricilərin tezlik xarakteristikası termorezistorun yerləşdiyi mühitin temperaturunun dəyişmə amplitudundan asılıdır.

PIC18F452 mikrokontrolleri əsasında temperaturu ölçən intellektual sistemin struktur sxemini Proteus proqram mühitində göstərmək olar.Proteus proqram mühitində temperatur ölçmə informasiya sisteminin işləmə sxemi şəkil 1.2.8-də göstərilmişdir.



Şəkil 1.2.8. Proteus proqram mühitində temperatur ölçmə informasiya sisteminin işləmə sxemi

Termomüqavimətlər üçün əsasən mis, platin və nikeldən istifadə olunur. Elektrolitik mis 180°C-dən artıq olmayan temperatura qədər qızdırılmağa imkan verir. Mis termomüqavimətlərin çevirmə tənliyi -50°C-dən +180°C-yə qədər demək olar ki, xəttidir və aşağıdakı düstur üzrə hesablanır.

$$R_t = R_0\left(1 + \alpha t\right) \qquad (1.2.10)$$

burada, α müqavimətin temperatur əmsalı olub, 0°C - 100°C temperatur intervalında 4,3 x 10^{-3} 1/°C-yə bərabərdir, t- temperatur, R_0 - 0^0C- dəki müqavimətdir.

Platin termomüqavimətlər 1200°C-yə qədər qızdırılmağa imkan verir. Çevirmə tənliyi qeyri-xəttidir və belə müəyyən olunur:

- 0°C-dən + 660°C-yə qədər intervalda $R_t = R_0\left(1 + At + Bt^2\right)$;
- 0°C-dən - 180°C-yə qədər intervalda $R_t = R_0\left[1 + At + Bt^2 + C\left(t - 100\right)^2\right]$

burada, A, B, C- sabit kəmiyyətlərdir.

+660°C-dən yuxarı və - 180°C-dən aşağı $R_t = f(t)$ asılılığı standartlaşdırılır.

Platin termomüqavimətlərin əsas çatışmazlığı çevirmə funksiyasının qeyri-xəttiliyidir. Ancaq, $R_t = f(t)$ asılılığının yüksək bərpa olma xassəsi, platinin dayanıqlığı və plastikliyi onu bir çox hallarda əvəzolunmaz edir.

Nikel termomüqavimətlər -200°C + 500°C temperatura qədər tətbiq olunur. Daha böyük temperaturlarda $R_t = f(t)$ asılılığı birqiymətli olmur. Nikelin elektrik xassəsi qarışıqlardan və termiki işlənilmədən asılı olur. Nikelin əsas üstünlükləri xüsusi müqavimətin və müqavimətin temperatur əmsalının böyük olmasıdır.

Göründüyü kimi, sistem zamana görə siqnalların ayrılması prinsipi ilə işləyir. Mikrokontrollerdən verilən koda uyğun olaraq sistemin girişinə müəyyən ardıcıllıqla TV1 temperatur sensoru, sonra TV2 və sonra TV3 temperatur sensorları qoşulur. Termoçeviricidə yaranan müqavimət normallaşdırıcı vasitəsi ilə elektrik siqnalına (gərginlik və ya cərəyan) çevrilir. Elektrik siqnalı analoq-rəqəm çeviricisi vasitəsi ilə koda çevrilərək mikrokontrollerə daxil olur. Alınan kod mikrokontrollerdə müəyyən alqoritmlə emal edilir və termomüqavimətin yerləşdiyi mühitin temperaturu hesablanır. Temperaturun qiyməti rəqəmli göstərici qurğuda əks etdirilir [18, s.144].

Təzyiqini ölçən informasiya sistemi 3 ədəd Sapfir – 22DH tipli sensordan, 1 ədəd KP590KH6 tipli 8 girişli kommutatordan, K1113PV1 tipli 10 mərtəbəli analoq-rəqəm çeviricisindən, K1816VE51 tipli proqramlaşdırıla bilən universal

mikrokontrollerdən, ölçmə nəticəsini təqdim etmək üçün nəzərdə tutulan rəqəmli unifikasiya və hərf-rəqəm çapetmə qurğularından ibarətdir [6, s.147].

Temperaturu ölçən informasiya sisteminin işləmə alqoritmi şəkil 1.2.9-da göstərilib.



Şəkil 1.2.9 Temperatur ölçmə informasiya sisteminin işləmə alqoritmi

Təzyiqi ölçmə informasiya sisteminin ümumi strukturu şəkil 1.2.10-da göstərilmişdir.



Şəkil 1.2.10 Təzyiqi ölçən informasiya ölçmə sisteminin ümumi strukturu

Sistemin işləməsi mikrokontroller tərəfindən idarə edilir. Mikrokontrollerdən verilən koda uyğun olaraq ardıcıllıqla TV1, TV2 və TV3 təzyiq sensorları qoşulur. Təzyiq sensorlarının çıxışlarında yaranan elektrik siqnalı analoq-rəqəm çeviricisi vasitəsi ilə 10 mərtəbəli koda çevrilərək mikrokontrollerə daxil olur. Alınan kod mikrokontrollerdə müəyyən alqoritmlə emal edilir və təzyiq hesablanır. Təzyiqin qiyməti rəqəm göstərici qurğuda göstərilir. Ölçmə informasiya sistemi 3 ədəd Sapfir – 22DH sensorundan, kommutatordan, analoq-rəqəm çeviricisindən, mikrokontrollerdən, rəqəmli unifikasiya və çap qurğularından təşkil edilmişdir. Kommutator sensorların sorğusunu onların ünvanlarına uyğun olaraq idarəedici girişlərinə verilən siqnalların məntiqi səviyyəsindən asılı olaraq yerinə yetirir [14, s.147]. Mikrokontrollerdən kommutatorun idarəedici girişlərinə sensorların ünvanına uyğun kodlar verilir və bununla sensorların çıxışları kommutatorun informasiya girişlərinə qoşulur [104, s.147]. Sensor seçildikdən sonra mikrokontrollerdən analoq-rəqəm çeviricisini işəsalma siqnalı verilir və analoq-rəqəm çeviricisinin işə buraxılması nəticəsində analoq siqnal 10 mərtəbəli koda çevrilir. Bu çevirmə başa çatdıqdan sonra analoq-rəqəm çeviricisi onun yeni çevirmə üçün hazır olması haqqında "hazırlıq əlamətini" bildirən siqnal yaradır. Bu siqnaldan sonra mikrokontrollerdən çeviriciyə sorğu siqnalı verilir və onun çıxışındakı kod kontrollerə daxil olur və uyğun massivlə yaddaşa yazılır. Yeni sensorların çıxış siqnallarını almaq üçün mikrokontroller kanalın nömrəsini bildirən kodu dəyişdirir və

beləliklə, digər sensorların sorğusu yerinə yetirilir. Bütün kanalların sorğusu başa çatdıqdan sonra ölçülən kəmiyyətin qiyməti aşağıdakı düsturla hesablanır.

Nümunə kimi neftin təzyiqi ölçən informasiya ölçmə sisteminin strukturunun elementlərlə təsviri şəkil 1.2.11-də göstərilmişdir.



Şəkil 1.2.11 Neftin təzyiqini ölçən informasiya ölçmə sisteminin struktur sxemi

Burada, P_1, P_m - boru kəməri ilə axıdılan neftin təzyiqini cərəyan, gərginlik və yaxud tezlik siqnalına çevirən təzyiq sensorları, MK, MK_1 və MK_m - geniş imkanlara malik olan PIC18F452 mikrokontrolleri, Aİ, $Aİ_1$ və $Aİ_m$ - informasiyanı nisbətən uzaq məsafəyə ötürən RS 485 tipli ardıcıl interfeys, E - maneəyə dayanıqlığı yüksəltmək məqsədi ilə ekran örtüklü kabel, UÇ - mikrokontrollerlə fərdi kompüteri uzlaşdıran MAX 232- uyğunlaşdırıcı bufer çevirici, Rİ - ölçmə nəticələrini əks etdirən rəqəmli indikator, FK - universal fərdi kompüterdir [6, s.154].

Beləliklə, kanalların seçilməsi baş verir. Sensor seçildikdən sonra mikrokontrollerdən analoq-rəqəm çeviricisini işəsalma siqnalı verilir və analoq-rəqəm çeviricisinin işə buraxılması nəticəsində analoq siqnal 10 mərtəbəli koda çevrilir. Bu çevirmə başa çatdıqdan sonra analoq-rəqəm çeviricisi onun yeni çevirmə üçün hazır olması haqqında "hazırlıq əlamətini" bildirən siqnal yaradır. Bu siqnaldan sonra mikrokontrollerdən çeviriciyə sorğu siqnalı verilir və onun çıxışındakı kod

kontrollerə daxil olur və uyğun massivlə yaddaşa yazılır. Yeni sensorların çıxış siqnallarını almaq üçün mikrokontroller kanalın nömrəsini bildirən kodu dəyişdirir və beləliklə, digər sensorların sorğusu yerinə yetirilir. Bütün kanalların sorğusu başa çatdıqdan sonra ölçülən kəmiyyətin qiyməti aşağıdakı düsturla hesablanır.

$$P = \frac{P_{\max} - P_{\min}}{N_{\max}} \cdot N + P_{\min} \qquad (1.2.11)$$

Təzyiq sensoru olaraq çıxış cərəyanı 4-20 mA diapazonunda dəyişən Metran-100 Dİ modelindən istifadə edilir [6, s.146].

Təzyiq ölçmə informasiya sisteminin işləmə alqoritmi aşağıdakı şəkil 1.2.12-də göstərilib.



Şəkil 1.2.12 Təzyiq ölçmə informasiya sisteminin işləmə alqoritmi

Proteus proqram mühitində təzyiq ölçmə informasiya sisteminin işləmə sxemi şəkil 1.2.13-də göstərilmişdir.



Şəkil 1.2.13 Proteus proqram mühitində təzyiq ölçmə informasiya sisteminin işləmə sxemi

Mikrokontrollerin yaddaşında təzyiqin və temperaturun müxtəlif qiymətlərində öncədən aparılmış bütün ölçmələrin nəticələri saxlanılır. Bu nəticələr vericinin işlədiyi zaman çıxış siqnalını təshih etmək üçün mikroprosessor tərəfindən təshih əmsallarını hesablamaq üçün istifadə edilir. Sensor blokundan rəqəmli siqnal təshih əmsalları ilə birlikdə elektron bloka daxil olur və burada mikroprosessor həmin siqnalı temperatura görə korreksiya edir və xəttiləşdirmə məsələsini həll edir. Sensorun icra variantından asılı olaraq elektron blokun çıxışında 0-5 mA, 0-20 mA, 4-20 mA və yaxud 4-20 HART siqnalları formallaşdırılır. Sensorun konstruksiyası istifadəçinin istəyinə uyğun olaraq siqnalın formasını, elektron çap lövhəsini (platasını) əvəz etməklə dəyişdirə bilər.

Hal hazırda intellektual informasiya-ölçmə texnologiyalardan istifadə edilməsi ölçmə nəticələrinin obyektivliyinin yüksəldilməsini, ölçmə dəqiqlyinin artırılmasına, ölçmə sistemlərinin funksional imkanlarının genişləndirilməsinə şərait yaradır.

Proteus proqram mühitində müxtəlif parametrləri ölçən informasiya sisteminin işləmə sxemi 1.2.14-də göstərilmişdir.



Şəkil 1.2.14 Proteus proqram mühitində müxtəlif parametrləri ölçən informasiya sisteminin işləmə sxemi

Mikroprosessorların və mikrokontrollerlərin ölçmə sistemlərində geniş tətbiq edilməsi texnoloji proseslərin idarə edilməsinin mərkəzləşdirilmiş prinsipindən imtina edərək, onların daha çevik və etibarlı olan səpələnmiş nəzarət və idarəetmə prinsipinə keçilməsini mümkün etmişdir. Bu halda ölçmə sisteminin icra etməli olduğu hesablama, məntiq qərarların qəbul edilməsi və bu kimi məsələlərin icra edilməsi onların ayrı-ayrı təşkilediciləri arasında paylanır. Müxtəlif ölçmə-hesablama vasitələri tərəfindən icra edilən funksiyalar də müxtəlif olur [24, s.176].

Belə funksiyalara misal olaraq ölçmə həddinin avtomatik olaraq seçilməsini, işləmə rejiminin, cəldişləmənin seçilməsini, özünüsınaq və özünüdiaqnostika əməliyyatlarını, çevirmə funksiyasının xəttiləşdirilməsini və s. göstərmək olar.

Sensor mikroelektronika və mikroprosessor texnikasının inteqrallaşdığı ölçmə çeviriciləri və vericiləri bu funksiyalardan bəzilərini onların yerinə yetirməsinə imkan verir. Ölçmələr məqsədilə müasir informasiya-ölçmə texnologiyalardan istifadə

edilməsi ölçmə nəticələrinin obyektivliyinin yüksəldilməsini, ölçmə dəqiqliyinin artırılmasına, ölçmə sistemlərinin funksional imkanlarının genişləndirilməsinə şərait yaradır [15, s.17].

İdarəetmə proqramı mikrokontrollerin portunun sazlanması, girişin rəqəm siqnalları üçün sazlanması, giriş kanalının, sensorun seçilməsi, takt impulsları mənbəyinin seçilməsi, impuls sayğacının sazlanması, impulsların sayılıb koda çevrilməsinin başlanması, impulsların sayılıb koda çevrilməsi başa çatdıqdan sonra növbəti çevirmə əməliyyatına başlamaq üçün hazır olma əlamətini bildirən siqnalın alınması və yoxlanılması funksiyalarını yerinə yetirir [25, s.18]. Ölçmə sisteminə daxil olan bütün ölçmə kanallarının hamısının sorğusunu yerinə yetirmək üçün kanalın kodu ardıcıl olaraq dəyişdirilir. Çevirmələrdən alınan nəticələri qəbuledici məntəqəyə ötürmək üçün rabitə kanalına verilir [13, s.146].

Verilənlərin ötürülməsi üçün nəzərdə tutulan proqramların icra etdiyi əsas funksiyalar aşağıda göstərilmişdir:

- Registrlərdəki kodların ardıcıl koda çevrilərək rabitə kanalı ilə ötürülməsi;
- Ötürülən kodların qəbul edilərək, paralel kodlara çevrilməsi;
- Ötürülən kodların maneələrə dayanıqlılığının təmin edilməsi.

Verilənlərin emal proqramları aşağıdakı funksiyaları yerinə yetirir:

- Ölçülən kəmiyyətin ölçü vahidində qiymətinin hesablanması;
- Ölçmə xətasının hesablanması;
- Ölçmə nəticələrinin statistik emalı;
- Ölçmə nəticələrinin ölçmə xətaları ilə birlikdə təqdim edilməsi.

Sensor texnologiyasındakı inkişaf, sənaye monitorinqi, bina və ev avtomatlaşdırması, tibb, ətraf mühitin monitorinqi, sər sensor şəbəkələri, ağıllı nəqliyyat kimi bir çox sahələrdə sensor şəbəkələri tətbiqetmələrini artırdı. Bu şəbəkələr təhlükəsizlik, hərbi müdafiə, fəlakətlərin qarşısının alınması və s. üçün də istifadə edilə bilir. Qapalı ətraf mühitin monitorinqinə naqilsiz sensor şəbəkələrinin iki əsas tətbiqi daxildir: istilik, havalandırma və kondisioner kimi ətraf mühit sistemlərini daha yaxşı idarə etmək üçün ətraf mühitin fiziki parametrləri və yanğın və tüstü aşkarlanması barədə məlumat toplamaq. Yanğın kimi kritik hadisələr qapalı

sahəyə və həyati təhlükəli şəraitlərə ağır struktur zərər verə bilər, buna görə də yaşayış yerlərində erkən yanğın aşkarlanması, zərərlərin və həyat itkilərinin dərhal azaldılması üçün vacibdir. Yanğının aşkarlanması üçün sensor şəbəkələrinin əsas məqsədi nəzarət olunan orjinal məlumatları toplamaq və monitorinq mərkəzi üçün əsas məlumat və qərar dəstəyini təmin etməkdir. Həmçinin, verilənlərin çıxarılması alqoritmi yüksək sürətli gələn verilənlərin emalı üçün kifayət qədər sürətli olmalıdır. Sensor sxemi tez-tez şəbəkədaxili emal tələb edə bilər, burada verilənlər növbəti emaldan əvvəl daha yüksək səviyyədə emal olunur. Bu yolla ayrı-ayrı qovşaqlar yerli məlumatları əldə edir və emal edir və toplu qərar əldə etmək üçün qonşu qovşaqlarla əlaqə qurmalı, yerli və qismən modellər göndərməli və ümumi qərar qəbul etməlidirlər. Bu vəziyyətdə bütün verilənlər saxlanıla bilməz və kütləvi, fərqli və dinamik verilənlərdən real vaxtda hərəkətli görüntüləri yaratmaq üçün daha effektiv hasilat və analiz üçün yığcamlaşdırma və filtrləmə ilə dərhal emal edilməlidir. Bu ötürülmə xərclərini azaldır və verilənlər saxlanılma baxımından həddindən artıq yüklənir. Sensor verilənlərinin toplanılması (əldə edilməsi) nisbətən yeni sahədir, lakin artıq müəyyən yetkinlik səviyyəsinə çatmışdır. Sensor şəbəkələrindəki verilənlərin çıxarılması, tətbiq-əsaslı modellərin və nümunələrin, sensor şəbəkələrindən davamlı, sürətli və bəlkə də bitməmiş məlumat axınından məqbul dəqiqliklə çıxarılması prosesidir [90, s.346]. Ancaq xam yəni, emal olunmamış sensor verilənlərindən faydalı biliklərin çıxarılması çətin tapşırıqdır və ənənəvi verilənlər hasilatı üsulları, sensor məlumatlarının paylanmış təbiəti və xüsusiyyətləri (kütləvi miqdar və yüksək ölçü), sensor şəbəkələrinin və sensor qovşaqlarının məhdudiyyətləri səbəbindən sensor şəbəkələri birbaşa tətbiq olunmur [31, s.146]. Bu sensor şəbəkələrindən davamlı gələn böyük həcmli verilənlərdən məlumat əldə etməklə məşğul olan yeni verilənlərin çıxarılması üsullarını araşdırmağa səbəbdir. Verilənlərin çıxarılması texnikasının əsas məqsədi verilənlər arasındakı əlaqələri izah etməyə və onlara əsaslanan proqnozlaşdırıcı modellər yaratmağa cəhd göstərmək üçün verilənlərdə struktur nümunələrini tapmaq və təsvir etməkdir [87, s.365]. Bu səbəblərdən, son illərdə tədqiqat sahəsində böyük həcmli sensor verilənlərinə məlumat hasilatı texnikasını tətbiq etməyə böyük maraq yaranmışdır. Digər tərəfdən,

ölçmələr vasitəsilə bir sistem və ya prosesi müşahidə edərkən, ölçülmüş kəmiyyət, demək olar ki, həmişə müxtəlif növ qeyri-müəyyənliyə məruz qalır. Məsələn, bizi maraqlandıran fiziki kəmiyyəti ölçmək üçün bir sensoru nəzərdən keçirsək, sensorun çıxışı çox güman ki, sensor prinsipindən və onun həyata keçirilməsindən asılı olaraq faktiki fiziki kəmiyyət ilə düz mütənasib olmur, əksinə, qeyri-xətti asılılığın nəticəsidir [30, s.146].

Fərqli qeyri-xətti xarakteristikaya malik iki sensorun oxşar oxunuşları müxtəlif qeyri-müəyyənlik intervalları ilə faktiki fiziki kəmiyyətin qiymətlərinə səbəb ola bilər. Həmçinin, xüsusiyyətlər müxtəlif ölçmə şərtləri altında hətta bir sensor üçün dəyişə bilər. Fərqli qeyri-xətt xarakteristikaya malik iki sensorun qrafiki şəkil 1.2.15-də göstərilmişdir [129, s.494].



Şəkil 1.2.15 Fərqli qeyri-xətt xarakteristikaya malik iki sensorun qrafiki

Müxtəlif sahələrdə istifadə edilən ölçmə informasiya sistemlərində çevirmə funksiyası xətti olmayan vericidən istifadə edildikdə düz ölçmələr zamanı, dolayı və birgə ölçmələrdə isə bütün hallarda mikroposessorlarda ədədlər üzərində qeyri-xətti funksional çevirmə əməliyyatlarının icra edilməsi lazım gəlir. Bu məqsədlə müxtəlif aproksimasiya üsullarından istifadə edilir [3, s.101].

Aproksimasiyanın məqsədi qeyri-xətti funksiyaların nəzərə alınmayacaq dərəcədə kiçik dəqiqlik itkisi ilə daha sadə, istifadə və hesablamalar üçün daha əlverişli şəkildə təsvir edilməsidir. Burada, qeyri-xətti funksional asılılıqların təshihedici düzəlişlər daxil etməklə aproksimasiyası üçün təklif edilmiş üsullara baxılır [7, s.74].

Məsələnin həlli, təshihedici düzəlişlərlə funksional asılılıqları aproksimasiya üsulları xəttiləşdirmə və inteqral xətaların korreksiyası məsələlərinin həlli metodikası əsasında yaradılmışdır [35, s.17], [36, s.16]. Bu məqsədlə aproksimasiya olunan $f(x)$ funksiyasının arqumentinin dəyişmə dipazonu parçalara bölünür və koordinat sisteminin tənböləni olan $y = x$ xəttinin bu parçalar daxilinə düşən hissələrinin yerləri dəyişdirilərək $f(x)$ funksiyasına yaxınlaşdırılır. Yerdəyişməni icra etmək üçün istifadə edilən riyazi əməllərdən asılı olaraq bu üsullar additiv (A), multiplikativ (M), kombinativ və additiv-multiplikativ (A-M) aproksimasiya üsulları adlandırılmışdır [4, s.97]. İntellektual ölçmə vasitələrində, informasiya ölçmə sistemlərində icra edilən çevirmələr zamanı funksional asılılıqların aproksimasiyası məsələləri aktual olaraq qəbul edilir. Burada ölçmə kanalındakı müxtəlif çevirmələrin nəticəsinə düzəlişlər daxil etməklə parçalarla additiv aproksimasiya üsuluna baxılır [2, s.159], [5, s.79].

Additiv üsul və qeyri-xətti funksional aproksimasiyası zamanı $y = f(x)$ funksiyası koordinat sisteminin y=x tənböləni parçaların paralel sürüşdürülməsi nəticəsində yaranan düz xətt parçaları ilə əvəz edilir. $f(x)$ qeyri-xətti funksiyanın i-ci hissəsi şəkil 1.2.16-da təsvir edilmişdir.



Şəkil 1.2.16 Additiv üsulla aproksimasiya edilən f(x) funksiyasının i-ci parçasının təsviri

Burada $в_i$ tənböləni (y=x) i-ci parçasının f(x) funksiyasına yaxınlaşma istiqamətində yerdəyişməsinin qiymətidir. $\varepsilon_{i-1} = \varepsilon_i$ - i-ci hissənin x_{i-1} və x_i sərhədlərində $\varphi_i(x)$ və f(x) funksiyalarının yayınlmalarıdır.

Qeyri-xətti f(x) funksiyasını i-ci parçada aproksimasiya edən $\varphi_i(x)$ funksiyası aşağıdakı tənlik ilə ifadə olunur.

$$\varphi_i(x) = x \pm \beta_i \qquad (1.2.12)$$

burada, «+» işarəsi $f(x) > x$, «-» işarəsi isə $f(x) < x$ halına uyğun gəlir.

Arqumentin (x) dəyişmə diapazonunun bölunduyu parçaların sərhəd qiymətləri x_i, bu parçalar daxilində qiymətcə sabit qalan düzəliş β_i və sərhədlərdə yayınmaların qiyməti ε_i bu yayınmaların i-ci parçasının aşağı (x_{i-1}) və yuxarı(x_i) sərhədlərndə qiymətcə bərabər, işarəcə əks olması şərtindən aşağıdakı kimi təyin edilir.

$$x_i = f(x_i) - f(x_{i-1}) - x_{i-1} \mp 2\varepsilon \qquad (1.2.13)$$

$$b_i = \pm 0.5\{[f(x_i) + f(x_{i-1})] - (x_i + x_{i-1})\} \qquad (1.2.14)$$

$$\varepsilon_i = \pm 0.5[\Delta f(x_i) - \Delta x_i] \qquad (1.2.15)$$

Burada, $\Delta f(x_i) = f(x_i) - f(x_{i-1})$; $\Delta x_i = x_i - x_{i-1}$; $f(x_i)$ və $f(x_{i-1})$ i-ci parçasının aşağı və yuxarı sərhədlərində f(x) funksiyasının qiymətləridir.

(1.2.13) ifadəsinin təhlili göstərir ki, $\Delta f(x_i) = \Delta x_i$ halında $\varepsilon_i = 0$ olur. Budan belə nəticə çıxır ki, parçalarla additiv aproksimasiya üsulundan istifadə [85, s.1192]. edildikdə $\Delta f(x_i)/\Delta x_i = 1$ şərtini ödəyən parçada f(x) funksiyası $y = x$ düz xəttinə paralel olur və bu parçada $\varepsilon_i \to 0$, onun yaxın ətrafında isə $\varepsilon_i \to$ min qiymət alır. Parçalarla additiv aproksimasiya üsulu aşağıdakı riyazi modellə ifadə edilir [77, s.269].

$$\varphi_i(x) = \gamma_i(x)(x \pm \beta_i) \qquad (1.2.16)$$

Burada, $\gamma_i(x)$ -məntiq funksiyası olub, yanız $x \epsilon [x_{i-1}; x_i]$ i-parçasında $\gamma_i(x) = 1$ qiymətini alır, qalan hallarda $\gamma_i(x) = 0$ olur.

Parçalarla additiv aproksimasiya üsulunun realizasiyasının ümumiləşdirilmiş sxemi şəkil 3.1.4-də göstərilmişdir.

Arqumentin (x) dəyişmə diapazonunu parçalara bölmə sərhədlərix$_i$(i = 1 ÷ s)bu parçalar daxilində sabit qalan additiv düzəlişlərin qiymətləri yadda saxlanılır. Arqumentin x cari qiyməti sərhəd x_i(i = 1 ÷ s) qiymətləri ilə müqayisə edilərək, onun daxil olduğu interval $x \epsilon [x_{i-1}; x_i]$ təyin edilir ($\gamma_i(x) = 1$) və yaddaşdan həmin intervala uyğun olaraq additiv düzəliş b_i seçilir və x arqumenti ilə cəmlənir. Nəticədə, x arqumentinin daxil olduğu intervalda $\varphi_i(x) = x \pm б_i$ hesablanmış olur. Deməli, additiv aproksimasiya üsulunda yalnız bir hesablama əməliyyatından istfadə olunur [35, s.17]. Müasir dövrdə ölçmə texnikasının inkişafı onların funksional imkanlarının artırılması, metroloji xarakteristikalarının yaxşılaşdırılması, zehni fəaliyyət tələb edən bəzi intellektual funksiyaların yerinə yetirilməsi istiqamətində aparılır. Parçalarla additiv aproksimasiya üsulunun realizasiyasının ümumiləşdirilmiş sxemi şəkil 1.2.17-də göstərilmişdir.



Şəkil 1.2.17 Parçalarla additiv aproksimasiya üsulunun realizasiyasının ümumiləşdirilmiş sxemi

Multiplikativ üsul ilə qeyri-xətti funksional asılılıqların aproksimasiyası zamanı f(x)funksiyası koordinat sisteminin $y = x$ tənböləni parçalarının ordinatlarını təshihedici əmsallara vurmaqla döndərilərək bu funksiyanın qrafikinə yaxınlaşan düz xətt parçaları ilə əvəz edilir. Qeyri-xətti f(x) funksiyasını i-ci parçada aproksimasiya edən $\varphi_i(x)$ funksiyası aşağıdakı tənliyi ilə ifadə olunur [94, s.39].

$$\varphi_i(x) = M_i \cdot x \qquad (1.2.17)$$

burada, $f(x) > x$ olduqda $M_i > 1$; $f(x) < x$ olduqda isə $M_i < 1$ olur.

f(x) qeyri-xətti funksiyanı multiplikativ üsulla aproksimasiya edən $\varphi(x)$ funksiyasının i-ci hissəsi şəkil 1.2.18-də təsvir edilmişdir.



Şəkil 1.2.18 Parçalarla multiplikativ aproksimasiya üsulu

Burada A_1-tənbölənin i-ci parçasını döndərərək, f(x)funksiyasına yaxınlaşdıran multiplikativ əmsaldır; $\varepsilon_{i-1} = \varepsilon_i$ –i-ci hissənin x_{i-1} və x_i sərhədlərində $\varphi_i(x)$ və f(x) funksiyalarının yayınmalarıdır. Arqumentin dəyişmə diapazonunun bölunduyu parçaların sərhəd qiymətləri x_i, bu parçalar daxilində qiymətcə sabit qalan multiplikativ əmsallar M_i və sərhədlərdə yayınmaların qiyməti ε_i bu yayınmaların bölmə parçalarının aşağı və yuxarı sərhədlərndə qiymətcə bərabər, işarəcə əks olması şərtindən təyin edilir.

$$x_i = x_{i-1}\left[f(x_i) \pm \varepsilon\right] / \left[f(x_{i-1})\right] \mp \varepsilon$$

(1.2.18)

$$M_i = \left[f(x_{i-1}) + f(x_i)\right] / (x_{i-1} + x_i) \qquad (1.2.19)$$

$$\varepsilon_i = \pm 0.5 \cdot \left[M\Delta x_i - \Delta f(x_i) \right] \qquad (1.2.20)$$

burada, $\Delta f(x_i) = f(x_i) - f(x_{i-1})$; $\Delta x_i = x_i - x_{i-1}$ kimi ifadə edilir.

$f(x_{i-1})$ və $f(x_i)$ i-ci parçanın aşağı və yuxarı sərhədlərində $f(x_i) < 0$ qabarıqlığın yuxarıya yönəlməsi, aşağıdakı işarələr isə $\Delta f(x_i)>0$ qabarıqlığın aşağıya yönəlməsi hallarına uyğun olur. Bu ifadədən görünür ki, multiplikativ aproksimasiya üsulunda f(x) funksiyası ilə $y = x$ xəttinin bir-birinə nəzərən koordinat sistemində necə yerləşməsi onların yazılışında heç bir dəyişikliyə səbəb olmur. (1.2.20) ifadəsinin təhlili göstərir ki, $\Delta f(x_i) = \Delta x_i$ şərtini ödəyən parçada $\varepsilon_i \neq 0$ olur. Belə ki,

$$\varepsilon_i = \pm 0.5 \cdot \left[M_i \cdot \Delta x_i - \Delta x_i \right] = \pm 0.5 \cdot \Delta x_i \cdot \left(M_i - 1 \right) \qquad (1.2.21)$$

Multiplikativ üsulun əsas təsir mexanizmi ondadır ki, $M_i \neq 1$ olan parçalarda xətti xarakteristika $f(x_i)$ -ə yaxınlaşır, lakin $\Delta f(x_i) = M_i \cdot \Delta x_i$ şərtini ödəyən parçada $\varepsilon_i = 0$ ola bilər. Parçalarla multiplikativ aproksimasiya üsulunun xətası $\Delta f(x_i) = \Delta x_i$ parçasında deyil , $\Delta f(x_i) \neq \Delta x_i$ şərtini ödəyən parçada minimal qiymət ala bilər. Parçalarda multiplikativ aproksimasiya üsulu $\psi_i(x) = \gamma_i(x) \cdot M_i \cdot x$ modeli ilə ifadə olunur. Burada $\psi_i(x)$- məntiq funksiyası olub, yanız $x \epsilon [x_{i-1}; x_i]$ şərtini ödəyən i-parçasında $\psi_i(x) = 1$ qiymətini alır, qalan hallarda $\psi_i(x) = 0$ olur [94, s.40-42].

Parçalarla multiplikativ aproksimasiya üsulunun realizasiyasının ümumiləşdirilmiş sxemi şəkil 1.2.19-da göstərilmişdir.



Şəkil 1.2.19 Parçalarla multiplikativ aproksimasiya üsulunun realizasiya sxemi

Arqumentin dəyişmə diapazonunu parçalara bölmə sərhədləri $x_i (i = 1 \div m)$ və bu parçalar daxilində sabit qalan multiplikativ əmsalların qiymətləri M_i yadda

saxlanılır. Arqumentin cari qiyməti x sərhəd qiymətləri $x_i (i = 1 \div m)$ ilə müqayisə edilərək, onun daxil olduğu interval $x \epsilon [x_{i-1}; x_i]$ təyin edilir və yaddaşdan həmin intervala uyğun olaraq multiplikativ əmsal M_i seçilir və x arqumentinə vurulur. Nəticədə, x-in daxil olduğu parçada $\varphi_i(x) = M_i \cdot x$ qiyməti hesablanmış olur. Beləliklə, təklif edilən üsulda bir neçə müqayisə və vurma əməlini yerinə yetirməklə qeyri-xətti funksional asılılıqların parçalarla aproksimasiyası yerinə yetirilir.

Eyni faktiki vəziyyət və ya hətta parametrin eyni qiymətii haqqında ölçmələr və ya məlumatlar müxtəlif, fərdi qeyri-müəyyənlik dərəcələrinə məruz qala bilər [124, s.41]. Qeyri-müəyyənlik üçün interval sərhədlərinin dəqiq spesifikasiyası həmişə mövcud olmaya bilər. Bu səbəbdən qeyri-səlis çoxluqlar vasitəsilə qeyri-müəyyənlik intervallarının qeyri-səlis modelləşdirilməsini təklif edirik. Qeyri-müəyyən məlumatların təhlili üçün digər güclü vasitələr mövcud olsa da qeyri-səlis çoxluqlar həm məlumat, həm də ekspert əsaslı məlumat üçün birgə modelləşdirmə yanaşmasına imkan verir. Tələbata uyğun olaraq kombinəedilmiş xəttiləşdirmə üsulundan da istifadə olunur. Kombinəedilmiş xəttiləşdirmə üsulunun məğzi ondan ibarətdir ki, ölçmə vasitələrinin qeyri-xətti xarakteristikasının bəzi parçaları multiplikativ, qalanları isə additiv xəttiləşdirmə üsulundan istifadə edilməklə xəttiləşdirilir. Praktikada elə hallar olur ki, kombinəedilmiş üsul multiplikativ və additiv xəttiləşdirmə üsullarından effektiv olur [2, s.158]. Kombinəedilmiş xəttiləşdirmə üsulundan istifadə edərkən multiplikativ və ya additiv xəttiləşdirmə üsullarının rasional seçiminə xüsusi diqqət yetirilməlidir. Bu ölçmə vasitələrinin qeyri-xətti çevirmə xarakteristkasının xüsusiyyətlərindən və onun xətti xarakteristika ilə qarşılıqlı yerləşmə vəziyyətindən asılıdır [99, s.41]. Qeyd etmək lazımdır ki, qabarıqlığı aşağıya yönəlmiş, xətti xarakteristikadan yuxarıda yerləşən qeyri-xətti xarakteristikalar üçün və qabarıqlığı yuxarıya yönəlmiş, xətti xarakteristikadan aşağıda yerləşən qeyri- xətti xarakteristikalar üçün multiplikativ xəttiləşdirmə üsulunun xətası additiv üsula nisbətən daha kiçik olur. Beləliklə, kombinəedilmiş xəttiləşdirmə üsulundan istifadə olunma məsələsi qabarıqlığı aşağı yönəlmiş, xətti xarakteristikadan aşağıda yerləşən və ya onunla kəsişən və qabarıqlığı yuxarı yönəlmiş xətti xarakteristikadan yuxarıda yerləşən və ya onunla kəsişən qeyri-xətti

xarakteristikaları xəttiləşdirən zaman qarşıya çıxa bilər [98, s.226]. Bu zaman ölçmə vasitələrinin qeyri-xətti xarakteristikasının və xətti xarakteristikanın artımının təxminən bərabər olduğu parçalarda additiv üsulun xətası multiplikativ üsuldan az olur. Bu artımların çox fərqləndiyi qalan parçalarda isə additiv üsulun xətası multiplikativ üsuldan böyük olur [2, s.158].

FƏSİL 2. QEYRİ-SƏLİS MƏNTİQİN MƏSAFƏ SENSORLARINA TƏTBİQİ

2.1. Qeyri-səlis məntiq. Qeyri-səlis sistemin əsas elementləri

Qeyri-səlis sistemdə üç əsas element mövcuddur. Onlar qeyri-səlis çoxluqlar, mənsubiyyət funksiyaları və qaydalardır. Qeyri-səlis çoxluqlar qeyri-səlis məntiq sisteminin əsas elementləridir, mənsubiyyət funksiyaları isə qeyri-səlis çoxluqları qrafiki olaraq göstərmək üçün istifadə olunur. Qaydalar qeyri-səlis məntiq sisteminin qərar verməsinə kömək edən insan beyni kimi işləyir [144, s.456].

Çoxluq anlayışı riyaziyyatın əsasıdır və bəzi xüsusiyyətlər arasındakı əlaqəli obyektlərin toplusu kimi göstərilə bilər. Klassik çoxluğa çox aydın sərhədlər daxil edilir, məsələn fərqli ehtimalları istisna edən $x \in A$ və ya $x \notin A$ [42, s.15].

X çoxluq, A isə $X(A \subseteq X)$ çoxluğunun alt çoxluğu olarsa, funksiyanı aşağıdakı kimi təyin edə bilərik.

$$X_A(x) = \begin{cases} 1 \text{ əgər } x \in A \\ 0 \text{ əgər } x \notin A \end{cases} \tag{2.1.1}$$

Buna X çoxluğunda A çoxluğunun xarakterik funksiyası deyilir. Klassik çoxluqlar və nisbi əməliyyatlar xarakterik funksiyalar ilə əldə edilə bilər.

Qeyri-səlis çoxluqlar L. Zadə tərəfindən [42, s.67] təqdim edilmişdir. L.Zadənin təqdim etdiyi qeyri-səlis çoxluğun tərifi aşağıdakı kimidir: Qeyri-səlis çoxluq elementləri bu çoxluğa müəyyən mənsubluq dərəcəsi ilə malik olan çoxluqdur. Beləliklə, X-dəki qeyri-səlis A çoxluğu hər elementlə əlaqədə olan μ_A mənsubluq

funksiyası ilə xarakterizə olunur [43, s.344]. Qeyri-səlis A çoxluğu və onun X qeyri-səlis alt çoxluğu aşağıdakı kimi təyin edilir:

$$\mu_A(x): X \to [0,1] \tag{2.1.2}$$

Burada, $\mu_A(x)$- A qeyri-səlis çoxluğunun mənsubiyyət funksiyasıdır.

Hər bir klassik çoxluq eyni zamanda qeyri-səlis çoxluq hesab edilir. Qeyri-səlis çoxluqlar $x_A : X \to \{0,1\}$ xarakterik funksiyaları ilə təmsil olunan klassik çoxluqların ümumiləşdirmələridir. $A(x)=1$ olduğu halda A çoxluğunda x-in tam mənsubluğunu ifadə edir, $A(x)=0$ isə A çoxluğunda x-in mənsubluğunun olmadığını bildirir, lakin klassik halın əksinə digər mənsubluq dərəcələrinə icazə verilir. Qeyri-səlis çoxluğun mənsubiyyət funksiyası klassik çoxluqlarda göstərici funksiyasının ümumiləşdirilməsidir. Qeyri-səlis məntiqdə mənsubiyyət funksiyası doğruluq dərəcəsini təmsil edir. Mənsubiyyət funksiyaları diaqramdan istifadə edərək qeyri-səlis çoxluğu təsvir etməyə imkan verir. Qrafikdəki x oxu tədqiqat sahəsi, y oxu isə [0,1] intervalındakı mənsubiyyət dərəcələrini göstərir. X tədqiqat sahəsində qeyri-səlis A çoxluğu üçün mənsubiyyət funksiyası yuxarıda deyildiyi kimi $\mu_A(x): X \to [0,1]$ olaraq təyin olunur, burada X-in hər elementi 0 ilə 1 arasındakı dəyərə uyğunlaşdırılır. Bu dəyər mənsubiyyət dərəcəsi kimi tanınır və ya X-dəki elementin qeyri-səlis A çoxluğu mənsubiyyətin dərəcəsini təyin edir [140, s.2930]. Qeyri-səlis anlayışlar təyin edildiyindən, qeyri-səlis çoxluqlar üçün mənsubiyyət funksiyalarını qurmaq üçün ümumiyyətlə sadə funksiyalar seçilir. Daha mürəkkəb funksiyalardan istifadə etmək çox dəqiqlik tələb etmir [142, s.6]. Ən çox istifadə olunan mənsubiyyət funksiyaları üçbucaqşəkilli mənsubiyyət funksiyası, trapezoidal mənsubiyyət funksiyası və Qauss mənsubiyyət funksiyasıdır. Üçbucaqşəkilli mənsubiyyət funksiyası şəkil 2.1.1-də göstərilmişdir.



Şəkil 2.1.1. Üçbucaq mənsubiyyət funksiyaları

Üçbucaq mənsubiyyət funksiyasının tənliyi aşağıdakı kimi ifadə edilir.

$$\mu(x)=\begin{cases} 0, & x \le a \\ \dfrac{x-a}{m-a}, & a < x \le m \\ \dfrac{x-b}{b-m}, & m < x < b \\ 0, & x \ge b \end{cases} \qquad (2.1.3)$$

Burada, üçbucaqlı mənsubiyyət funksiyası a alt limiti (sərhəd), b üst limiti və m dəyər ilə təyin olunur ki, burada $a < m \le b$ kimi olacaq [143, s.196].

Şəkil 2.1.2-də aşağıda trapez formalı mənsubiyyət funksiyası təyin edilmişdir. Trapezoidal mənsubiyyət funksiyası şəkil 2.1.2-də göstərilmişdir.



Şəkil 2.1.2 Trapezodial mənsubiyyət funksiyaları

Trapezoidal mənsubiyyət funksiyasının tənliyi aşağıdakı kimi ifadə edilir.

$$\mu_A(x)=\begin{cases} 0, & (x<a)\ ve\ ya\,(x>d) \\ \dfrac{x-a}{b-a}, & a\le x\le b \\ 1, & b<x<c \\ \dfrac{d-x}{d-c}, & c\le x\le d \end{cases} \qquad (2.1.4)$$

Burada, trapezoidal mənsubiyyət funksiyası a alt limiti, d üst limiti, b alt dəstək limiti və c üst dəstək limiti ilə təyin olunur ki, burada $a < b < c < d$ kimi olacaq.

Gauss mənsubiyyət funksiyası şəkil 2.1.3- də göstərilmişdir.



Şəkil 2.1.3. Qauss mənsubiyyət funksiyaları

Qauss mənsubiyyət funksiyasının tənliyi aşağıdakı kimi göstərilir.

$$\mu_A(x)=e^{\frac{(x-m)^2}{2k^2}} \qquad (2.1.5)$$

Burada Gauss mənsubiyyət funksiyası m-ədədi orta və k-standart yayınma ($k > 0$) ilə təyin olunur və burada k nə qədər kiçik olarsa, zəngvari əyri də o qədər dar olacaq, yəni standart yayınma az olacaq.

Qeyri-səlis məntiq sisteminin qaydaları ekspert biliklərinin seçilməsində "Əgər-Onda" məntiq ifadələrini təmsil edir. Əgər-Onda ifadələri süni intellekt sahəsində ekspert sisteminin ayrılmaz hissəsi kimi tanınır [97, s.350]. Lakin ekspert sistemləri qaydalardan yaranan nəticələrin əks etdirilməsi üçün klassik məntiqə və ehtimala əsaslanır. Qeyri-səlis çoxluqlar qeyri-müəyyənliyi qaydalara daxil edir, çünki daha az dəqiq linqvistik termləri təmsil edirlər, məsələn, çox uzaq, çox yaxın olmayan, lap yaxın və s. kimi termlərlə ifadə oluna bilərlər. Qaydalar paralel olaraq fəaliyyət göstərir və qeyri-səlis məntiq sisteminin çıxışına təsir edir. Qeyri-səlis çoxluqlardan istifadə edən bu məntiqi emal qeyri-səlis məntiq kimi tanınır [101, s.1275]. Qeyri-səlis məntiqi emal şəkil 2.1.4 (a) və şəkil 2.1.4 (b)-də təsvir edilmişdir. Emal ardıcıllığı fazzifikasiya, nəticə çıxarmaq və defazzifikasiya kimi üç fərqli hissəyə bölünür. Fazzifikasiya dəqiq girişlərin qeyri-səlis çoxluqlara çevrildiyi və daha sonra qeyri-səlis məntiq sistemi tərəfindən istifadə edilə bilən emal prosesidir. Nəticənin emalı Əgər-Onda ifadələri şəklində qaydalarının işlənməsi ilə başlayır. Qaydanın əvvəlki və ya şərt bloku Əgər (İf) ifadəsi ilə, nəticə və ya nəticə bloku isə Onda (Then) ifadəsi ilə başlayır.



Şəkil 2.1.4 (a). Qeyri-səlis məntiqi emal



Şəkil 2.1.4(b). Qeyri-səlis məntiqi emal

Nəticə blokuna verilən dəyər, qeyri-səlis çoxluqların sərhədlərini xarakterizə edən mənsubiyyət funksiyalarının aktivasiya dəyərlərinin məntiqi nəticəsinə bərabərdir. Aktivasiya dəyəri, qiymətləndirmə anında giriş dəyişəninin malik olduğu mənsubiyyət funksiyasının dəyərinə bərabərdir [91, s.48]. Məntiqi nəticələr və mənsubiyyət funksiyaları ilə təmsil olunan qeyri-səlis ədədləri sabit və dəqiq nəticəyə çevirmək üçün defazzifikasiya əməliyyatı aparılır. Defazzifikasiya bir neçə yolla həyata keçirilə bilər. Əksər tətbiqetmələr, ardıcıl qeyri-səlis çoxluqda kütlə mərkəzi

və ya qeyri-səlis sentroid hesablama həyata keçirir. Bu, simmetrik və bircinsli (homogen) olduqda paylanma üsulunun aşkarlanmasına bərabərdir [93, s.24].

Ölçmə cihazları texnoloji obyektlərə və istehsalata nəzarət sistemlərinin ən vacib komponentləridir. Bu cihazlar ölçülən kəmiyyətlərin cari parametrlərini təyin edən ən sadə ölçmə vasitələrindən sadə alqoritmlərin icrasında, idarə olunmasında, bir sira problemlərin diaqnostikasında, ölçülən informasiyanın çevrilməsində və s. istifadə olunan çoxfunksiyalı avtomatlaşdırılmış vasitələrə çevrilirlər. Ölçmə cihazlarının çoxfunksiyalı olması mikroelektronika texnologiyalarının inkişafı sayəsində və onların mikrokontrollerdə yığılması və tətbiqindən sonra baş verdi. Bu da sürətin artması və enerji səmərəliliyinin yüksəlməsinə gətirib çıxartdı. Aktual olan o faktdır ki, müəyyən şəraitdə sensorun muxtariyyətinin olması, sistemin dayandırılması rejimində də xarici parametrlərin qeydiyyata alınmasına imkan verir. Yəni, sistemin məhv edildiyi anda və müvafiq güc mənbələrinin mövcudluğunda, sensor müəyyən bir ehtiyat qeydedici cihazına çevrilir. Sənaye şəraitində məsafədən ölçmə sensoru kimi müxtəlif növ ultrasəs ölçmə cihazları istifadə olunur ki, onların da təsir imkanı ölçmə obyektindən ultrasəs impulslarının əks olunan şüalanmasını ölçməyə əsaslanır. Bu cür cihazların sadə nümunələrindən biri ötürücü və qəbuledici rolunu oynayan pyezorezistiv çeviricilərdir [11, s.191].

Məsafənin təyin edilməsinin əsas prinsipi aşağıdakı addımları əhatə edir: 1) ultrasəs tezliyində impuls çeviricinin şüalanması; 2) əks olunan impulsun sensor tərəfindən obyektdən alınması; 3) impulsun emissiya anı ilə əks olunan ikiyə bölünmüş impulsun alınması anı arasındakı zaman fərqinin təyin olunması. Ölçmə prosesinə nəzarət və ölçmə avadanlığının parametrlərinin təyin edilməsi, ölçmələrdə yüksək xəttiliyi təmin edən bir mikrokontroller tərəfindən həyata keçirilir. Qeydiyyatda və işlənmədə ziddiyyət ölçmə sürətidir. Nəzəri cəhətdən əsaslandırılmış optimal tezlik 40 kHz-dir. İntellektual platformanın tətbiqi və məşhur alimlərin istifadə etdiyi metodların araşdırılmasının aktuallığı tədqiq olunan problemin tələbləri və təqdimetmə formaları barədə aydın bir fikir formalaşdırır. Ağıllı, intellektual bir sensorun quruluşuna aşağıdakı funksional hissələr daxildir: takt impulsları generatoru, real vaxt sensoru, mikrokontroller, ultrasəs sensoru, flash kart saxlama

cihazı və sistemlərin idarəetmə sistemi üçün interfeys və rabitə cihazı. Ultrasəs ölçmə cihazı üçün ağıllı bir platformanın təşkilində vacib bir əlavə qeyri-səlis qaydaları tətbiq edən mikrokontrollerdir. Mikrokontrollerin əsasını fazzifikasiya blokları, həll yolları, defazzifikasiya və həmçinin məlumat bazası təşkil edir [9, s.184]. Fazzifikasiya bloku səlis kəmiyyətləri qeyri-səlis kəmiyyətlərə çevirir, onların qiymətləri linqvistik termlər kimi bilik bazasında əvvəlcədən təyin edilmişdir. Qərarlar bloku qeyri-səlis giriş məlumatlarını qeyri-səlis olan idarəetmə siqnallarına çevrilmək üçün məlumat bazasında müəyyən edilmiş qeyri-səlis şərt qaydalarına uyğunlaşdırmaq üçün nəzərdə tutulmuşdur. Defazzifikasiya bloku linqvistik termlər şəklində olan qeyri-səlis kəmiyyətləri qərar blokunda obyektə nəzarət etmək üçün istifadə olunan səlis kəmiyyətə çevirmək üçün nəzərdə tutulmuşdur. Ölçmə zamanı işçi orqanının maneəyə olan məsafəsini ölçərkən əldə edilən kritik vəziyyətlərin qiymətləri qeyd olunur və cədvələ daxil edilir. Belə bir kritik vəziyyətin bir nümunəsi: qəza və ya qəzadan öncəki vəziyyət anındakı məsafə 30 mm olduqda bir uğursuzluq mümkündür [60, s.184]. Ağıllı bir sensor üçün uğursuzluq və onun əvvəlcədən qeydiyyatı aparılır. Burada hadisələr müəyyən bir ehtimal ilə proqnozlaşdırılır. Layihələndirilən sistemdə giriş dəyişəni, göstərilən maneəyə qədər olan məsafə, ultrasəs ölçmə cihazı tərəfindən qeyd olunur. Giriş linqvistik termlər üçün təyin olunmuş interval ultrasəs sensorun siqnallarının minimum və maksimum qiymətlərindən formalaşır [61, s.11]. Texniki xüsusiyyətlərə görə giriş linqvistik dəyişəninin "Maneəyə qədər olan məsafə" üçün icazə verilən qiymət həddi 30mm ilə 350 mm arasında müəyyən edirik. Şəkil 2.1.5-də kritik təhlükəli zonada məsafədən ölçmə nəticələri göstərilir. 35 mm-ə qədər bir uğursuzluğun baş verəcəyinə dair tam bir əminlik yoxdur və qeyd olunmalıdır (məsələn, 110 mm məsafə 0.9 dərəcəsi olan "uğursuzluq" kateqoriyasına uyğundur). Bununla birlikdə, 40 mm-dən 100 mm-ə qədər 1 ranq təyin edilə bilər, yəni bu qiymətlərdə uğursuzluq birmənalı olacaqdır. 120 mm qiymətlərindən sonra nasazlıq ölçülmüş sayılır, lakin “uğursuzluq” termininə uyğun məsafə 0-dan 1-ə qədər olan dərəcə aralığında olması lazım olduğundan hələ baş verməmişdir. Bu fakt “uğursuzluqdan əvvəlki vəziyyəti” qeyd etmək üçün bir siqnal yaradır [123, s.256]. Məsafə kəmiyyəti nə qədər böyükdürsə, müvafiq

müddətə aidiyyəti o qədər az olur, dərəcə sıfıra meyl edir və sensorun çıxış siqnallarının qeyd olunma tezliyi yüksəlir. Nəticədə, sensorun bütün ölçü aralığında uğursuzluq konsepsiyasını əks etdirən qeyri-səlis çoxluq təyin edilir [102, s.185]. Məsafənin ölçülən qiyməti linqvistik termlərlə (çox yaxın, yaxın, qəza) şəkil 2.1.5-də göstərilmişdir.



Şəkil 2.1.5. Məsafə sensorunun qeyri səlis çoxluğunu təyin etmə sxemi

Məsafə sensorları müəyyən bir ərazidən məlumatları fasiləsiz olaraq toplayan və məlumat bazasına göndərən bir çox sensor şəbəkələrindən istifadə edir. Klaster əsaslı məlumatların toplanılması, aqreqasiyası məsafə sensorları üçün əsas prosedurlardan biridir. Klasterləşdirmə məsafə sensor şəbəkəsinin ömrünü uzatmaq üçün vacib bir prosedurdur. Klaster başlığı müvafiq klaster qovşaqlarından alınan məlumatları birləşdirir və baza stansiyasına göndərir [52, s.320]. Məsafə sensorlar şəbəkəsinin əsas problemi uyğun qovşaq başlıqlarının seçilməsidir. Düzgün seçilmiş qovşaq başlıqları enerji istehlakını azaldır, çünki sensorlar arasında qısa yollar var. Bunun üçün məsafə sensorlarının qeyri-səlis aqreqasiya modelinin işlənilməsi vacib məsələlərdən biridir. Məsafə sensorları texnologiyasındakı mövcud metodologiyalar tədqiqatçılara ümumiləşdirilmiş məlumatların hesablanması, sensor düyünlərinin enerji istehlakı, ən qısa yol axtarış alqoritminin tətbiqi məsafə sensor şəbəkəsindəki təhlükəsizlik problemlərini azaltmağa imkan verir [41, s.1465]. Enerji sərfi məlumatların toplanılması, aqreqasiyası metodologiyasını tətbiq etməklə azaldıla

bilər. Məlumatların aqreqasiyası sensor düyünlərinin enerjisini daha effektiv istifadə etmək üçün doğru zamanda toplanmalı olan informasiya toplusudur [96, s.7198]. Məlumatların aqreqasiyasının daha effektiv olması üçün eyni xüsusiyyətə malik temperatur sensorları, rütubət sensorları və s. kimi müxtəlif sensorlardan alınan məlumat bir dəfə toplanılır və sonrakı işlənməyə göndərilir [58, s.19]. Enerji istehlakını və rabitə yükünü azaltmaq, lazımsız məlumatlatları minimuma endirərək şəbəkənin ömrünü artırmaq üçün klasterləşmə ən yaxşı variantdır. Burada məsafə sensorlarından alınan məlumatları qəbuledici düyündə toplamaq üçün təklif olunan qeyri-səlis aqreqasiya modelinin işlənilməsi məsələsinə baxılır. Cədvəl 2.1.1-də qeyri səlis qaydalarda giriş və çıxış kəmiyyətlərin təsdiq olunmuş əlaqələri göstərilmişdir.

Cədvəl 2.1.1

Ultrasəs sensorla ölçülən məsafənin qeyri-səlis qaydalar cədvəli

Hərəkətin dəyişmə xarakteri	Açar sözlərin dəyişmə qiyməti	Çıxış parametrlərinin qeydiyyatı
Aşağı	Aşağı	Qeyd yoxdu
Aşağı	Orta	Aşağı tezlikdə qeyd
Aşağı	Yuxarı	Yuxarı tezlikdə qeyd
Orta	Aşağı	Aşağı tezlikdə qeyd
Orta	Orta	Orta tezlikdə qeyd
Orta	Yuxarı	Yuxarı tezlikdə qeyd
Yuxarı	Aşağı	Orta tezlikdə qeyd
Yuxarı	Orta	Orta tezlikdə qeyd
Yuxarı	Yuxarı	Yuxarı tezlikdə qeyd

Qeyri-səlis qaydaların aid olma dərəcəsi aid olma funksiyası adı ilə müəyyənləşir. Bizim halda 120 mm məsafə çox yaxın vəziyyətə aid edilir, 240 mm isə yaxın vəziyyətə aid edilir. Koordinat oxu verilmiş funksiyanın maksimal qiyməti qeyri-səlis məntiqli mikrokontrollerin daxili registrinin maksimal qiymətini üstələməmək üçün tətbiq edilib [64, s.89]. Absis oxu üzrə qiymətlər əvvəldən emal olunmuş modulun alınmış qiymətləri ilə uyğun olur. 0 qiyməti mənsubluğun

yoxluğunu, 0,9 isə mütləq iştirakı göstərir. Fazzifikasiya prosesi bir və ya bir neçə giriş funksiyasının onun qiymətinə uyğun qiymətinin alınması ilə nəticələnir. Qeyri-səlis mikrokontrollerdə defazzifikasiya prosesi sadələşdirilmişdir, hər qeyri-səlis məntiqli çıxış funksiyasına əlavə bir funksiya müqayisə etməyə imkan verir.

Axtarış minimax metodu ilə həyata keçirilir, yəni giriş funksiyalarının birləşmələrin qiymətlərindən ən böyüyü müvafiq çıxış funksiyasında göstərilir. Linqivistik termlərin tətbiqi və seçilməsi, çıxış funksiyasının iki və ikidən çox olduğu qaydalarla müəyyən edilir [65, s.2967]. Bu vəziyyətdə ən aşağı qiymət əldə edilir. Sonra bütün çıxış funksiyaları və müvafiq birləşmələrin qiymətlərindən istifadə edərək defazzifikasiya prosesi aparılır, mərkəzi çıxış qiymətləri hesablanır və ultrasəs sensorla ölçmə fiksasiya rejiminin nümunəsi alınır. Çıxış funksiyalarının alınmış qiymətləri doqquz qaydaya görə hesablanan birləşmələrin qiymətləri ilə vurulur, nəticələr əlavə olunur və cəm ədədlərin sayına bölünür. Prosesdə vəziyyət administratoruna vəziyyəti və hadisəni qeyd etmək üçün son ədədi qiymət və müvafiq mesaj flaş yaddaş kartına göndərilir. İdarəetmənin mühəndislər üçün çatışmazlığı qeyri-səlis məntiq alqoritmlərinin translyasiyası və layihələrinin proqramlaşdırma dilinə və əksinə tərcüməsi, onların dinamik dəyişməsi və korreksiyasıdır. Kod tələb olunan proqramlaşdırma dilinə çevrildikdə, proqramı müəyyən bir mikrokontroller üçün kod halına gətirmək mümkündür [55, s.76] Bu kod sensordan ayrı olaraq programlanır və sonra qərarların hazır bazası mikrokontrollerin operativ yaddaşına daxil edilir və sensor yazılmış proqrama uyğun olaraq işə başlayır. Əməliyyat sensorunun proqramında dəyişiklik etmək üçün yenidən yazılır [82, s.184]. Qeyri-səlis məntiq nəzəriyyəsinə əsaslanan kontroller bazasında bir avtomatlaşdırma cihazının elementi kimi ultrasəs məsafə sensoru üçün ağıllı (intellektual) bir platforma dizayn edərkən aşağıdakı çatışmazlıqlar aşkar edildi:

- Standarta uyğun çox sayda xəttin səbəb olduğu bir flash kartın ümumi ölçüləri;
- mikrokontrollerin böyük qabaritli ölçüləri ağıllı sensorun ölçülərinə cavab vermir;

- qeyd müddətini məhdudlaşdıran məsafəni qeyd etmək üçün ayrılmış yaddaşın miqdarı kifayət deyil.

Məsafə sensoru üçün qeyri-səlis çoxluğu, qeyri-səlis qaydalar cədvəli və fazzifikasiya qaydalarını təyin etmək üçün sxem hazırlanır. Bunun əsasında, qeyri-səlis məntiqlə mikrokontrollerdə ağıllı, intellektual sensorun işləməsi üçün alqoritm qurulur. Ağıllı sensor platformasının dizaynında bəzi çatışmazlıqlar var. Qeyri-səlis məntiq bazasında intellektual sensor cihazqayırmada, avtomobil və aviasiya sənayesində tətbiq oluna bilər.

Qeyri-səlis üçbucaq şəkilli ədədlərlə toplama operatorları adlandırdığımız qeyri-səlis toplama operatorlarını tətbiq etmək üçün mövcud məlumatların dəqiq rəqəmlərlə qiymətləndirilə bilməyəcəyi vəziyyətə diqqət yetirilir və bu halda qeyri-müəyyən və ya qeyri-səlis rəqəmlər kimi qeyri-dəqiq məlumatları qiymətləndirmək üçün başqa bir yanaşmadan istifadə etmək lazım gəlir [57, s.156]. Psevdoarifmetik əməliyyatlar kimi üçbucaq normalar olan t-normlar və t-conormlar anlayışından da istifadə edilir [95, s.85] Nəticədə, üçbucaq şəkilli qeyri-səlis ədədlərlə hesablamalar, nizamlı üçbucaq şəkilli qeyri-səlis ədədlərlə hesablamalar, ümumiləşdirilmiş üçbucaq şəkilli qeyri-səlis ədədlərlə hesablamalar və müxtəlif qeyri-səlis hesablama operatorları ilə əldə edilir. Üçbucaq şəkilli qeyri-səlis toplama operatorları təkcə mövcud qeyri-səlis toplama operatorlarının geniş spektrini əhatə etmir, həm də yeni maraqlı situasiyalar təqdim edir. İnsan bilikləri üçün mövcud məlumatların dəqiq (səlis məlumatlar) və ya dəqiq olmayan (qeyri-səlis məlumatlar) olur. Qeyri-səlis toplama və ya aqreqasiya operatorları qeyri-səlis ədədlər çoxluğunu vahid ədədi qiymətə (uyğun qeyri-səlis qiymət) birləşdirmək və ümumiləşdirmək üçün faydalı modellərdir [45, s.85]. Bu cür operatorlar çoxmeyarlı qərar qəbuletmə problemlərinin həlli üçün vacibdir. Həqiqətən də çoxmeyarlı qərar qəbuletmə problemlərində, ümumiyyətlə, sonlu alternativlər çoxluğu $[m] = \{1, ..., m\}$ nəzərdən keçirilir ki, bunlardan sonlu meyarlar çoxluğuna müvafiq olaraq ən yaxşısı seçilir $[n] = \{1..., n\}$. $j \in [m]$ alternativinin hər bir $i \in [n]$ meyarı üçün qiymət təyin etmək üçün ekspertlə məsləhətləşmələr aparılır. Bu qiymət i meyarının yerinə yetirilmə dərəcəsi və j alternativi ilə bağlı üstünlüyün ifadəsi kimi

qəbul edilə bilər. Hər bir meyar üçün hər bir ekspert öz qiymətləndirməsini kəmiyyət və ya keyfiyyət formasında olan şkala üzrə ifadə edir [141, s.217].

Çoxmeyarlı qərar qəbuletmə proseduru üç əsas mərhələdən mövcud məlumatı təqdim etmək üçün uyğun modelləri axtardığımız modelləşdirmə mərhələsindən, qismən çoxluq və ölçülər əsasında hər bir alternativ üçün ümumi dəyər tapmağa çalışdığımız toplama, aqreqasiya mərhələsindən və alternativlər haqqında qlobal məlumatları ya $[m]$-dəki elementlərin tam sıralamasına, ya da $[m]$-də ən yaxşı alternativlərin qlobal seçiminə çevirdiyimiz istifadə mərhələsindən ibarətdir [10, s.345], [88, s.360].

Real dünyada bəzən mövcud məlumatın dəqiq rəqəmlərlə qiymətləndirilə bilinmədiyi vəziyyətlərlə qarşılaşırıq və bu cür məlumatları yüksək dərəcədə qeyri-müəyyənlik və ya qeyri-dəqiqliklə təqdim etmək üçün başqa bir yanaşmadan istifadə etmək lazımdır. Bu halda bir neçə üsul mövcuddur ki, bunlardan bəziləri qeyri-səlis ədədlər, interval rəqəmlər və linqvistik ədədlərdir [44, s.49].

Fərz edək ki, iki qeyri-səlis ədəd mövcuddur, hər i = 1, 2 üçün $0 \le ai \le bi \le ci \le di$ ilə $\tilde{x} = (a_1, b_1, c_1, d_1)$ və $\tilde{y} = (a_2, b_2, c_2, d_2)$. Yəni, $\tilde{x}, \tilde{y} \in$ P̃(R+). R+ müsbət real ədədlərdən ibarət qeyri-səlis alt çoxluqlardır. $\tilde{x}$ və $\tilde{y}$ arasında hesablama əməliyyatlar $\{\oplus, \odot\}$ aşağıdakı kimi müəyyən edilir [56, s.42]:

$$\begin{gathered}
\tilde{x} \oplus \tilde{y} = \tilde{y} \oplus \tilde{x} = (a_1 + a_2, b_1 + b_2, c_1 + c_2, d_1 + d_2) \\
\tilde{x} \odot \tilde{y} = \tilde{y} \odot \tilde{x} = (a_1 \cdot a_2, b_1 \cdot b_2, c_1 \cdot c_2, d_1 \cdot d_2) \\
\tilde{x} \odot \lambda = \lambda \odot \tilde{x} = (\lambda \cdot a_1, \lambda \cdot b_1, \lambda \cdot c_1, \lambda \cdot d_1), \\
\lambda \ge 0.
\end{gathered} \tag{2.1.6}$$

Qeyri-səlis ədədləri sıralamaq üçün ədəbiyyatda bir çox üsul mövcuddur. Buna baxmayaraq, burada [101, s.2086]-da qeyd olunan metoddan istifadə etməyi tövsiyə edilir ki, bu metod ən yüksək mənsubluq dərəcəsində tapılan dəyərdən və əgər o, interval ədəddirsə, intervalın orta dəyərindən istifadə etməkdən ibarətdir [105, s.2089]. Əslində, aşağıdakı prosedura uyğun olaraq $\tilde{x} = (a_1, b_1, c_1, d_1)$ və

$\tilde{y} = (a_2, b_2, c_2, d_2)$ səviyyələrini təyin etmək tövsiyə edilir:

$$x > \tilde{y} \Leftrightarrow (b_1 + c_1)/2 > (b_2 + c_2)/2;$$
$$\tilde{x} < \bar{y} \Leftrightarrow (b_1 + c_1)/2 < (b_2 + c_2)/2; \qquad (2.1.7)$$
$$\tilde{x} = \tilde{y} \Leftrightarrow (b_1 + c_1)/2 = (b_2 + c_2)/2.$$

Qeyri-səlis ədədləri toplamaq üçün bir sıra toplama operatorları hazırlanmışdır. Bəzi tanınmış qeyri-səlis toplama operatorlarını qısaca təqdim etməzdən əvvəl onların əsas xüsusiyyətlərini təqdim edək [89, s.210].

Qeyri-səlis mühitdə toplama üçün uyğun hesab edilən bəzi xüsusiyyətləri təqdim edirik. Ümumi şəkildə $\tilde{F}: \tilde{\mathcal{P}}(\mathbb{R})^n \to \tilde{\mathcal{P}}(\mathbb{R}), n \geq 2$ kimi təyin olunan qeyri-səlis toplama operatorlarını nəzərdən keçirək, burada $n \geq 2$ natural ədəddir. Beləliklə, həmin operatorların əsas riyazi xüsusiyyətləri aşağıdakılardır:

Hüdud şərtləri:

$$\tilde{F}(0,\ldots,0) = 0$$
$$\tilde{F}(1,\ldots,1) = 1 \qquad (2.1.8)$$

Bu xüsusiyyət üçün, $\tilde{F}: \tilde{\mathcal{P}}([0,1])^n \to \tilde{\mathcal{P}}([0,1])$kimi verildiyini fərz edək.

Monotonluq:

$$\tilde{x}_i \leq \tilde{y}_i \Rightarrow \tilde{F}(\tilde{x}_1, \ldots, \tilde{x}_n) \leq \tilde{F}(\tilde{y}_1, \ldots, \tilde{y}_n), \forall i \in [n]$$

(2.1.9)

Davamlılıq:

"Əgər və ancaq" şərti daxilində $\tilde{F}$ o zaman davamlı hesab edilir ki, uyğun operator $F: \mathbb{R}^n \to \mathbb{R}$ davamlıdır. Başqa sözlə desək, komponent baxımından davamlı operator "əgər və ancaq" olduqda $\tilde{F}$ davamlı olur.

Kommutativlik:

$$\tilde{F}(\tilde{x}_1,\ldots,\tilde{x}_n) = \tilde{F}(\tilde{x}_{\pi(1)},\ldots,\tilde{x}_{\pi(n)}), \quad \forall \pi = (\pi(1),\ldots,\pi(n)) \qquad (2.1.10)$$

İdempotentlik:

$$\tilde{F}(\tilde{u},\ldots,\tilde{u})=\tilde{u} \qquad (2.1.11)$$

Məhdudluq:

$$\min(\tilde{x}_1,\ldots,\tilde{x}_n)\le\tilde{F}(\tilde{x}_1,\ldots,\bar{x}_n)\le\max(\tilde{x}_1,\ldots,\tilde{x}_n)$$

(2.1.12)

Qeyd edək ki, hüdud şərtləri və monotonluq ümumi qeyri-səlis toplama operatorlarını xarakterizə edən iki fundamental xüsusiyyətdir, onlar pozulmamalıdır. Əsas aqreqasiya operatorları aşağıdakılardır:

-Qeyri-səlis çəkiləndirilmiş ortalama operatoru [86, s.157]. Mövcud məlumatı dəqiq rəqəmlərlə qiymətləndirmək mümkün olmadıqda və verilənləri qeyri-səlis ədəd kimi ifadə etmək lazım olduqda ölçülü ortalama operatorundan istifadə edilir [103, s.350]. Qeyri-səlis çəkiləndirilmiş ortalama operatoru aşağıdakı kimi ifadə olunur:

$$FWA(\tilde{x}_1,\ldots,\tilde{x}_n)=\bigoplus_{i\in[n]}(w_i\,\square\,\tilde{x}_i)=\left(\sum_{i=1}^{n}w_i\cdot a_i,\sum_{i=1}^{n}w_i\cdot\right.$$
$$\left.\cdot\,b_i,\sum_{i=1}^{n}w_i\cdot c_i,\sum_{i=1}^{n}w_i\cdot d_i\right)=\big(WA(a_1,\ldots,a_n) \qquad (2.1.13)$$
$$WA(b_1,\ldots,b_n),WA(c_1,\ldots,c_n),WA(d_1,\ldots,d_n)\big)$$

Burada, $w_1,\ldots,w_n$ meyarların çəkiləridir və $\oplus$ və $\odot$ əməliyyatları vasitəsilə müəyyən edilir [56, s.67].

Qeyri-səlis çəkiləndirilmiş ortalama operatorunun əsas xüsusiyyətləri aşağıdakılardır.

(P1) Hüdud şərti:

$$\mathrm{FWA}(0,\dots,0) = \bigoplus_{i\in[n]} (w_i \odot 0) = 0 + \cdots + 0 = 0,$$
$$\mathrm{FWA}(1,\dots,1) = \bigoplus_{i\in[n]} (w_i \odot 1) = \sum_{i=1}^{n} w_i = 1 \qquad (2.1.14)$$

(P2) Monotonluq şərti: $\tilde{x}i \le \tilde{y}i$, $\forall i \in [n]$.

$$\begin{aligned}
&\tilde{x}_i \le \tilde{y}_i \Rightarrow w_i \square\ \tilde{x}_i \le w_i \square\ \tilde{y}_i \Rightarrow \\
&\left(w_i \square\ \tilde{x}_i\right) \oplus \left(w_j \square\ \tilde{x}_j\right) \le \left(w_i \square\ \tilde{y}_i\right) \oplus \left(w_j \square\ \tilde{y}_j\right) \Rightarrow \\
&\bigoplus_{i\in[n]} \left(w_i \square\ \tilde{x}_i\right) \le \bigoplus_{i\in[n]} \left(w_i \square\ \tilde{y}_i\right) \Rightarrow \\
&FWA\left(\tilde{x}_1,\cdots,\tilde{x}_n\right) \le FWA\left(\tilde{y}_1,\cdots,\tilde{y}_n\right)
\end{aligned} \qquad (2.1.15)$$

(P3) Davamlılıq şərti: Çəkiləndirmə operatoru fasiləsiz olduğu üçün qeyri-səlis çəkiləndirilmiş ortalama operatoru davamlıdır.

(P4) Komutativlik şərti: ($\tilde{x}\pi$ (1), ..., $\tilde{x}\pi$ (n)) düsturu ($\tilde{x}1$, ..., $\tilde{x}n$) -in permutasiyasıdır. Ümumilikdə, qeyri-səlis çəkiləndirilmiş ortalama operatoru ($\tilde{x}1$, ..., $\tilde{x}n$) ≠ FWA ($\tilde{x}\pi$ (1), ..., $\tilde{x}\pi$ (n)) şəklindədir. Bununla belə, əgər, $wi = w = 1/n$ olarsa, onda

$$\begin{aligned}
&\mathrm{FWA}\left(\tilde{x}_{\pi(1)} \dots\dots, \tilde{x}_{\pi(n)}\right) = \bigoplus_{i\in[n]} \left(w \odot \tilde{x}_{\pi(i)}\right) \\
&= \left(w \odot \bar{x}_{\pi(1)}\right) \oplus \left(w \odot \bar{x}_{\pi(2)}\right) \oplus \cdots \oplus \left(w \odot \bar{x}_{\pi(n)}\right) \\
&= \left(w \odot \bar{x}_{\pi(n)}\right) \oplus \left(w \odot \bar{x}_{\pi(n-1)}\right) \oplus \cdots \oplus \left(w \odot \bar{x}_{\pi(1)}\right) \\
&\qquad = \cdots = \mathrm{FWA}(\tilde{x}_1, \dots, \bar{x}_n)
\end{aligned} \qquad (2.1.16)$$

(P5) İdempotentlik şərti: Fərz edək ki, $i \in [n]$ üçün $\tilde{x}i = \tilde{u} = (a, b, c, d)$ dir. Onda

$$\mathrm{FWA}(\tilde{u},\dots,\tilde{u}) = \oplus_{i\in[n]} (w_i \odot \tilde{u}) = \left(\sum_{i=1}^{n} (w_i \cdot a), \sum_{i=1}^{n} (w_i \cdot b), \sum_{i=1}^{n} (w_i \cdot c), \sum_{i=1}^{n} (w_i \cdot d)\right) = (a,b,c,d) = \tilde{u} \qquad (2.1.17)$$

(P6) Məhdudiyyət şərti: $\min(\tilde{x}_1, \dots, \tilde{x}_n) = \tilde{x}_*$və $\max(\tilde{x}_1, \dots,, \tilde{x}_n) = \tilde{x}^*$ şəklində

olarsa, onda aşağıdakı ifadəni alarıq.

$$\mathrm{FWA}(\tilde{x}_1, \dots, \tilde{x}_n) = \oplus_{i\in[n]} (w_i \odot \tilde{x}_i) \geq \oplus_{i\in[n]} (w_i \odot \tilde{x}_*) \geq \tilde{x}_*\left(\sum_{i=1}^{n} w_i\right)\tilde{x}_*,$$

$$\mathrm{FWA}(\tilde{x}_1, \dots, \tilde{x}_n) = \oplus_{i\in[n]}(w_i \odot \tilde{x}_i) \leq \oplus_{i\in[n]}(w_i \odot \tilde{x}^*)$$

(2.1.18)

Buna görə də,

$$min\left(\tilde{x}_1,\dots,\tilde{x}_n\right) \leq \mathrm{FWA}\left(\tilde{x}_1,\dots,\tilde{x}_n\right) \leq max\left(\bar{x}_1,\dots,\bar{x}_n\right) \qquad (2.1.19)$$

Qeyri-səlis nizamlı çəkiləndirilmiş ortalama operatoru. Qeyri-səlis nizamlı ölçülü ortalama operatorunun müxtəlif versiyaları mövcuddur [100, s.454]. Bu operatordan istifadənin səbəbi odur ki, bəzən mövcud məlumat dəqiq rəqəmlərlə qiymətləndirilə bilmir və qeyri-səlis ədədlər kimi digər ifadələrdən istifadə etmək lazım gəlir.

Qeyri-səlis nizamlı çəkiləndirilmiş ortalama operatoru aşağıdakı formada uyğun ölçü $\left(w_1,\cdots w_n\right)$ vektoruna malikdir:

$$\mathrm{FOWA}\left(\tilde{x}_1,\dots,\tilde{x}_n\right) = \bigoplus_{i\in[n]}\left(w_i \square \tilde{x}_{(i)}\right) \qquad (2.1.20)$$

$\oplus$ və $\odot$ əməliyyatları yuxarıda ifadə olunmuşdur, $(\cdot)$ ifadəsi $[n]$ üzərində elə bir permütasiyadır ki, $\tilde{x}(1) \leq \cdots \leq \tilde{x}(n)$ olur.

Qeyri-səlis nizamlı çəkiləndirilmiş ortalama operatoru (P1),(P2), (P3), (P4), (P5) və (P6) xüsusiyyətlərini təmin edir.

(P4) Komutativlik prinsipinə görə ($\tilde{x}\pi$ (1), ..., $\tilde{x}\pi$ (n)) ifadəsi ($\tilde{x}1$, ..., $\tilde{x}n$) -in permutasiyası olarsa,

$$\mathrm{FOWA}\left(\tilde{x}_1,\dots,\tilde{x}_n\right) = \bigoplus_{i\in[n]}\left(w_i \square \tilde{x}_{(i)}\right)$$

(2.1.21)

$\tilde{x}_{(i)}$i çox böyük və $\{\tilde{x}_i, i \in [n]\}$ olduqda , $FOWA\left(\bar{x}_{n(1)},\ldots,\bar{x}_{n(n)}\right) = \bigoplus_{i\in[n]}\left(w_i \square \bar{x}'_{\pi(i)}\right)$

$\tilde{x}'_{\pi(i)}$i çox böyük olduqda və $\{\tilde{x}_{\pi(i)}, i \in [n]\}$, və $(\tilde{x}(1),..., \tilde{x}_{\pi}(n))$ $(\tilde{x}_1,..., \tilde{x}_n)$ olduqda

$$FOWA\left(\tilde{x}_1,\ldots,\tilde{x}_n\right) = FOWA\left(\tilde{x}_{\pi(1)},\ldots,\tilde{x}_{\pi(n)}\right) \qquad (2.1.22)$$

Quasi-arifmetik vasitələr, ümumiləşdirilmiş vasitələr və qeyri-səlis toplama operatorları. Yuxarıda təqdim olunan iki qeyri-səlis aqreqasiya operatoru Quasi-arifmetik vasitələr və ümumiləşdirilmiş vasitələr anlayışlarından istifadə etməklə ümumiləşdirilmişdir. Qeyri-səlis ölçülü Quasi-arifmetik ortalama vasitələrdən istifadə etməklə Quasi -arifmetik aqreqasiya operatorunu ümumiləşdirən aşağıdakı formulanı alırıq:

$$FWA\ (\tilde{x}_1, \ldots, \tilde{x}_n) = f^{-1}\left(\bigoplus_{i\in[n]} [w_i \odot f(\tilde{x}_i)]\right) \qquad (2.1.23)$$

burada, f funksiyası davamlı monoton funksiyadır və $\oplus$ və $\odot$ arifmetik əməliyyatları ilə ifadə olunur. f funksiyası Quasi operatorunun generator funksiyası adlanır. $w_i = w$, (P5) və (P6) şərtləri ödənərsə, qeyri-səlis çəkiləndirilmiş ortalama operatoru (P1), (P2), (P3), (P4) xüsusiyyətlərini təmin edir [56, s.67], [138, s.245]. Qeyri-səlis Quasi operatoru ilə işarələnmiş Quasi arifmetik ortalama operatoru, uyğun ölçü vektoruna (w_1, ..., w_n) malik olan Quasi operatorunun $\tilde{P}(R^+)^n \rightarrow \tilde{P}(R^+)$ təsviri aşağıdakı kimidir:

$$FOWA\ (\bar{x}_1, \ldots, \bar{x}_n) = f^{-1}\left(\bigoplus_{i\in[n]} \left[w_i \odot f\left(\tilde{x}_{(i)}\right)\right]\right) \qquad (2.1.24)$$

burada f: R+ → R+ ciddi davamlı monoton funksiyadır, $\oplus$ və $\odot$ arifmetik əməliyyatları (2)-də müəyyən edilmişdir və $(\cdot)$ $[n]$ üzərində elə bir permütasiyadır ki, $\tilde{x}(1) \leq \cdot\ltimes\cdot\ \tilde{x}(n)$ olur. f Quasi operatorunun generator funksiyası adlanır. Quasi operatoru (P1), (P2), (P3), (P4), (P5) və (P6) xüsusiyyətlərini təmin edir [139, s.340].

2.1.1. Qeyri-səlis aqreqasiya operatorları

Üçbucaq şəkilli qeyri-səlis ədədlərin aqreqasiyası toplama operatorları olan t-normlar və t-conormlar əsasında həyata keçirilir. Bu toplama operatorları sinfinə üçbucaq şəkilli qeyri-səlis ədədlərlə toplama operatorları deyilir. İstifadə edilən əməliyyat qaydaları üçbucaq normalara (t-norm və t-conorm) əsaslanır. t-normları və t-konormları bir sıra problemlərdə qeyri-səlis informasiyanın aqreqasiyası üçün [132, s.536] istifadə edilmişdir. Qiymətləndirmə çoxluğu {0, 1} deyil, [0, 1] vahid intervalı olduğu halda, bu operatorlar "və" və "və ya" məntiq operatorlarının müvafiq davamıdır. Beləliklə, t-normlar (uyğun olaraq t-conormlar) qeyri-səlis çoxluqlar nəzəriyyəsində birləşməni (uyğun olaraq, ayrılmanı) müəyyən etmək üçün geniş istifadə olunan mühüm toplama operatorları sinfini təmin edir, eyni zamanda çoxqiymətli məntiqi "və" (uyğun olaraq "və ya") əməliyyatını həyata keçirmək üçün də istifadə olunur [131, s.90].

$\odot$ ilə işarələnən T-norm ikili toplama operatorudur k və aşağıdakı xassələrə malikdir.

$$\forall x, y, z \in [0,\ 1],$$
$$(a)\, x \square\ y = y \square\ x$$
$$(b)\, x \square\ (y \square\ z) = (x \square\ y) \square\ z$$
$$(c)\, y \le z \Rightarrow x \square\ y \le x \square\ z$$
$$(d)\, x \square\ 1 = x$$

$\oplus$ ilə işarələnmiş t-conorm, neytral element 0 olmadıqda, t-norm ilə eyni xüsusiyyətlərə malik olan ikili toplama operatorudur, yəni $x \oplus 0 = x$ [96, s.40].

t-norm və t-conormların bir neçə mühüm parametrləşdirilməmiş və parametrləşdirilmiş sinifləri mövcuddur, lakin üç prototip və ən çox istifadə edilən nümunələr aşağıdakı kimi verilmişdir [137, s.78]

(1) $\odot(x, y)$ fl $\min(x, y)$; $\oplus_Z(x, y)$ fl $\max(x, y)$ [136, s.350];

(2) $\odot(x, y)$ fl $x \cdot y$; $\oplus_P(x, y)$ fl $x + y - x \cdot y$, ehtimal nəzəriyyəsinə əsaslanır;

(3) $\odot(x, y)$ fl max(0, x+y−1); $\oplus_L(x, y)$ fl min(1, x+y) [31,s.349].

Fərz edək ki, ˜ = (α, β, γ, δ) və $\tilde{x}$ = (a, b, c, d) iki trapezoidal qeyri-səlis ədədlərdir. $\oplus$ t-conorm, $\odot$ isə t-norm olarsa, aşağıdakı bərabərliklər alınar:

$$\odot\tilde{\omega} \odot \tilde{x} = (\alpha \odot a, \beta \odot b, \gamma \odot c, \delta \odot d);$$

$$\tilde{x}^{\tilde{\omega}} = \left(a^{\alpha}, b^{\beta}, c^{\gamma}, d^{\delta}\right) \qquad (2.1.25)$$

$\oplus$ t-conorm olarsa, $w_i \in [0, 1]$ ilə w = (w_1..., w_n) vektoru $\oplus$ -na uyğun ölçü vektoru adlanır, bu zaman (H) bərabərliyi ödənilir [140, s.325]

$$(H): w_1 \oplus \cdots \oplus w_n = 1 \qquad (2.1.26)$$

Vurğulamaq vacibdir ki,

$$\text{Əgər } \oplus = \oplus_Z, \text{ Onda (H)} \Leftrightarrow V_{i\in[n]} w_i = 1;$$

$$\text{Əgər } \oplus = \oplus_p, \text{ Onda (H)} \Leftrightarrow \prod_{i=1}^{n}(1 - w_i) = 0;$$

$$\text{Əgər } \oplus = \oplus_L, \text{ Onda (H)} \Leftrightarrow \sum_{i=1}^{n} w_i \geq 1.$$

Buna baxmayaraq əgər ölçü vektoru qeyri-səlis ədədlərlə ifadə edilirsə, o zaman bu qeyri-səlis ədədləri səlis ədədlərə çevirmək əvəzinə, məsələn, qeyri-səlis ölçü vektor modelindən istifadə etmək olar. Bu zaman o, aşağıdakı kimi müəyyən edilir:

$\oplus$ t-konorm olsun. $\tilde{w}_i$ = (α_i, β_i, γ_i, δ_i) ∈ $\tilde{P}$ ([0, 1]) olan qeyri-səlis vektor $\tilde{w}$ = ($\tilde{w}_1$, ..., $\tilde{w}_n$) $\oplus$ ilə uyğun qeyri-səlis ölçü vektoru adlanır və ($\tilde{H}$) bərabərliyi təsdiqlənir:

$$(\tilde{H}): \oplus_{i\in[n]} \tilde{w}_i = \left(\oplus_{i\in[n]} \alpha_i, \oplus_{i\in[n]} \beta_i, \oplus_{i\in[n]} \gamma_i, \oplus_{i\in[n]} \delta_i\right) = (1,1,1,1) = 1 \qquad (2.1.26)$$

Digər yanaşmalardan fərqli olaraq, bu metod daha informativdir, çünki o, bütün məlumatlardan istifadə edir və buna görə də tam nəticələrə gətirib çıxarır. Ancaq bu

yanaşmanın əsas çatışmazlığı praktikada istifadəsinin asan olmamasıdır **[**98, s.107**].** Qeyri-səlis aqreqasiya operatorlarından istifadə edərək sensorların seçilməsi ilə bağlı qərarvermə probleminə baxaq.

İlk addımda mütəxəssislər qrupu məsafə sensorları arasında beş mümkün alternativi nəzərdən keçirir- A_1, A_2, A_3, A_4, A_5. Sensorları dəyərləndirmək üçün ekspertlər qrupu hesab edir ki, əsas amil sensorların etibarlılığıdır. Beləliklə, ekspertlərin hər bir sensor üçün etibarlılığı dəyərləndirmə qiymətləri fərqli olacaq. Ekspertlər mümkün vəziyyəti nəzərdən keçiriblər. Ekspertlər qrupu qeyri-səlis nəticələr barədə öz rəyini bildirən üç nəfərdən ibarətdir. Hər bir ekspert sensorların etibarlılığını aşağıdakı qeyri-səlis linqvistik termlərlə ifadə edirlər: C_1- Çox pis, C_2- Pis, C_3- Orta, C_4- Yaxşı, C_5- Çox yaxşı.

Ekspertlərin nəticələri C_i və A_j üçün 2.2.1, 2.2.2 və 2.2.3 cədvəllərində göstərilmişdir. Qeyri-səlis ədədlərlə hesablamalar MATLAB mühitində aparılmışdır.

Cədvəl 2.2.1

Ekspert 1-in qeyri-səlis qərar matrisi

	A_1	A_2	A_3	A_4	A_5
C_1	(0.6,0.7,.08)	(0.7,0.8,0.9)	(0.3,0.4,0.5)	(0.1,0.2,0.3)	(0.5,0.6,0.7)
C_2	(0.7,0.8,0.9)	(0.7,0.8,0.9)	(0.3,0.4,0.5)	(0.2,0.3,0.4)	(0.6,0.7,0.8)
C_3	(0.3,0.4,0.5)	(0.7,0.8,0.9)	(0.6,0.7,0.8)	(0.4,0.5,0.6)	(0.4,0.5,0.6)
C_4	(0.4,0.5,0.6)	(0.5,0.6,0.7)	(0.4,0.5,0.6)	(0.7,0.8,0.9)	(0.7,.08,0.9)
C_5	(0.5,0.6,0.7)	(0.4,0.5,0.6)	(0.8,0.9,0.1)	(0.8,0.9,0.1)	(0.8,0.9,0.1)

Cədvəl 2.2.2

Ekspert 2-nin qeyri-səlis qərar matrisi

	A_1	A_2	A_3	A_4	A_5
C_1	(0.6,0.7,0.8)	(0.1,0.2,0.3)	(0.4,0.5,0.6)	(0.4,0.5,0.6)	(0.5,0.6,0.7)
C_2	(0.7,0.8,0.9)	(0.1,0.2,0.3)	(0.4,0.5,0.6)	(0.5,0.6,0.7)	(0.6,0.7,0.8)

C_3	(0.8,0.9,1)	(0.4,0.5,0.6)	(0.7,0.8,0.9)	(0.4,0.5,0.6)	(0.4,0.5,0.6)
C_4	(0.4,0.5,0.6)	(0.8,0.9,1)	(0.8,0.9,1)	(0.6,0.7,0.8)	(0.7,0.8,0.9)
C_5	(0.7,0.8,0.9)	(0.8,0.9,1)	(0.3,0.4,0.5)	(0.8,0.9,0.1)	(0.6,0.7,0.8)

Cədvəl 2.2.3

Ekspert 3-ün qeyri-səlis qərar matrisi

	A_1	A_2	A_3	A_4	A_5
C_1	(0.5,0.6,0.7)	(0.6,0.7,0.8)	(0.4,0.5,0.6)	(0.6,0.7,.08)	(0.5,0.6,0.7)
C_2	(0.7,0.8,0.9)	(0.1,0.2,0.3)	(0.4,0.5,0.6)	(0.3,0.4,0.5)	(0.6,0.7,0.8)
C_3	(0.6,0.7,0.8)	(0.8,0.9,1)	(0.7,0.8,0.9)	(0.6,0.7,0.8)	(0.4,0.5,0.6)
C_4	(0.4,0.5,0.6)	(0.5,0.6,0.7)	(0.8,0.9,1)	(0.5,0.6,0.7)	(0.7,0.8,0.9)
C_5	(0.7,0.8,0.9)	(0.4,0.5,0.6)	(0.3,0.4,0.5)	(0.7,0.8,0.9)	(0.7,0.8,0.9)

İkinci addımda, bu məsələ üzrə qərar qəbul edən ekspertlərin wE = (.3, .3, .4) çəki vektoru müəyyən edilir.

Bu məlumatlarla qeyri-səlis matrisi əldə etmək üçün ekspert rəylərini birləşdirə, yəni, aqreqasiya edə bilərik. Nəticələr cədvəl 2.2.4-də göstərilmişdir [134, s.120].

Cədvəl 2.2.4

Qeyri-səlis ödəmə matrisi

	A_1	A_2	A_3	A_4	A_5
C_1	(.57,.67,.77)	(.47,.57,.67)	(.36,.46,.56)	(.38,.48,.58)	(.5,.6,.7)
C_2	(.7,.8,.9)	(.27,.37,.47)	(.36,.46,.56)	(.32,.42,.52)	(.6,.7,.8)
C_3	(.58,.68,.78)	(.64,.74,.84)	(.66,.76,.86)	(.46,.56,.66)	(.4,.5,.6)
C_4	(.4,.5,.6)	(.58,.68,.78)	(.67,.77,.87)	(.58,.68,.78)	(.7,.8,.9)
C_5	(.63,.73,.84)	(.51,.61,.71)	(.44,.54,.64)	(.75,.85,.95)	(.7,.8,.9)

Sonra, hər bir alternativ üçün qlobal qiymət əldə etmək üçün meyar qiymətləndirmələri birləşdirilir. Qeyd edək ki, wC ölçü vektorunun konfiqurasiyası əsas T-konormunun $\oplus$L olduğunu göstərir.

Üçüncü addımda, C_i meyarlarının wC = (.1, .2, .2, .2, .3) ölçü vektoruna malik olduğunu fərz edək.

Cədvəl 2.2.5

Hər bir strategiya üçün qeyri-səlis qlobal qiymətlər

	A_1	A_2	A_3	A_4	A_5
$\oplus_{L,}$ Θ_Z	(1,1,1)	(1,1,1)	(1,1,1)	(1,1,1)	(1,1,1)
$\oplus_{L,}$ Θ_P	(.57,.67,.77)	(.50,.60,.70)	(.50,.60,.70)	(.54,.64.74)	(.6,.7,.8)
$\oplus_{L,}$ Θ_L	(0,.02,.22)	(0,0,.05)	(0,0,.14)	(.05,.15,.25)	(0,.1,.3)

Dördüncü addımda, aqreqasiya mərhələsinin sonunda sistem cədvəl 2.2.5-də verilmiş qeyri-səlis ümumi qiymətlər əsasında ən yaxşı alternativi seçə bilməlidir. Nəticələr cədvəl 2.2.6 -da göstərilmişdir.

Cədvəl 2.2.6

Alternativlərin ranqlandırılması

[2,13] Metoduna görə sıralama	
$\oplus_{\mathbf{L}}$, Θ_Z	$A_1=A_2=A_3=A_4=A_5$
$\oplus_{\mathbf{L}}$, Θ_P	$A_2<A_3<A_4<A_1<A_5$
$\oplus_{\mathbf{L}}$, Θ_L	$A_2=A_3<A_1<A_5<A_4$

Göründüyü kimi, toplama operatorundan və istifadə olunan sıralama metodundan asılı olaraq alternativlərin sıralanması fərqlidir.

Toplama operatorlarından və qeyri-səlis ədədlərin ranqlanması metodundan asılı olaraq, nəticələr fərqli qərarlara səbəb ola bilər.

2.3. Qeyri-səlis məntiqin məsafə sensorlarında verilənlərin aqreqasiyasında və emalında tətbiqi

Sensor texnologiyasındakı inkişaf, sənaye monitorinqi, bina və ev avtomatlaşdırması, tibb, ətraf mühitin monitorinqi, ağıllı nəqliyyat kimi bir çox sahələrdə sensor şəbəkələrinin istifadəsini artırdı. Bu şəbəkələr təhlükəsizlik, hərbi müdafiə, fəlakətlərin qarşısının alınması və s. üçün də istifadə edilə bilər. Qapalı ətraf mühitin monitorinqinə naqilsiz sensor şəbəkələrinin iki əsas tətbiqi daxildir: istilik, havalandırma və kondisioner kimi ətraf mühit sistemlərini daha yaxşı idarə etmək üçün ətraf mühitin fiziki parametrləri və yanğın və tüstü aşkarlanması barədə məlumat toplamaq. Yanğın kimi kritik hadisələr qapalı sahəyə və həyati təhlükəli şəraitlərə ağır struktur zərər verə bilər, buna görə də yaşayış yerlərində yanğının erkən aşkarlanması, zərərlərin və həyat itkilərinin dərhal azaldılması üçün vacibdir. Yanğının aşkarlanması üçün sensor şəbəkələrinin əsas məqsədi nəzarət olunan orjinal məlumatları toplamaq və monitorinq mərkəzi üçün əsas məlumat və qərar dəstəyini təmin etməkdir. Həmçinin, verilənlərin aqreqsiyası (toplanılması) alqoritmi yüksək sürətli gələn verilənlərin emalı üçün kifayət qədər sürətli olmalıdır. Sensor sxemi tez-tez şəbəkədaxili emal tələb edə bilər, burada verilənlər növbəti emaldan əvvəl daha yüksək səviyyədə emal olunur. Bu yolla ayrı-ayrı qovşaqlar yerli məlumatları əldə edir və emal edir və toplu qərar əldə etmək üçün qonşu qovşaqlarla əlaqə qurmalı, yerli və qismən modellər göndərməli və ümumi qərar qəbul etməlidirlər. Bu vəziyyətdə, bütün verilənlər saxlanıla bilməz və kütləvi, fərqli və dinamik verilənlərin daha effektiv analizi üçün yığcamlaşdırma və filtrləmə ilə dərhal emal edilməlidir. Bu ötürülmə xərclərini azaldır və verilənlər saxlanılma baxımından həddindən artıq yüklənmir. Sensor verilənlərinin toplanılması nisbətən yeni sahədir. Sensor şəbəkələrindəki verilənlərin toplanılması tətbiq əsaslı modellərin və nümunələrin, sensor şəbəkələrindən davamlı, sürətli və bəlkə də bitməmiş məlumat axınından məqbul dəqiqliklə aqreqasiyası prosesidir [108, s.12]. Ancaq xam (emal olunmamış) sensor verilənlərindən faydalı biliklərin çıxarılması çətin prosesdir. Verilənlər yığılması üsulları, sensor məlumatlarının paylanma təbiəti və

xüsusiyyətləri (yüksək ölçülü informasiya və s.), sensor şəbəkələrinin və sensor qovşaqlarının məhdudiyyətləri səbəbindən sensor şəbəkələrinə birbaşa tətbiq olunmur [127, s.667]. Bu, sensor şəbəkələrindən davamlı gələn böyük həcmli verilənlərdən məlumat əldə etmək üçün istifadə olunan yeni aqreqasiya üsullarını araşdırmağa səbəbdir [135, s.1182]. Verilənlərin aqreqasiyası texnikasının əsas məqsədi verilənlər arasındakı əlaqələri izah etməyə və onlara əsaslanan proqnozlaşdırıcı modellər yaratmağa cəhd göstərmək üçün verilənlərdə struktur nümunələrini tapmaq və təsvir etməkdir. Bu zaman statistika, maşın öyrənmə, nümunə tanıma, verilənlər bazası sistemləri, məlumat nəzəriyyəsi, süni intellekt kimi müxtəlif sahələrin informasiyasından istifadə edilir [130, s.184]. Bu səbəblərdən, son illərdə tədqiqat sahəsində böyük həcmli sensor verilənlərinə məlumat hasilatı texnikasını tətbiq etməyə böyük maraq yaranmışdır. Verilənlərin çıxarılması texnikasının tətbiqi üçün giriş məlumatları bir sıra nümunələr şəklində təqdim olunur və nəticələr təhlil olunan məlumat strukturunun proqnozlaşdırıcı və ya təsviredici formasında ifadə edilə bilir. Beləliklə, verilənlərin çıxarılmasında istifadə olunan texnika iki sinifə bölünür.

Təsviredici alqoritmlər - istifadəçi üçün maraqlı ola biləcək birliklər, qruplar və s. kimi fərdi nümunələrin aşkar edilməsində tədqiqat verilənlərinin təhlili üçün istifadə olunur. Verilənlərin toplanılması böyük verilənlər çoxluğundan nümunələrin çıxarılması və məlumatı kəşf etmə prosesinin kritik komponenti kimi təkrarlanan proses olaraq üç əsas addımdan ibarətdir. İlk etapda emaldan əvvəl hasilata uyğun olmaq üçün xammal verilənlərinin emal edilməsini əhatə edir, məsələn, səs-küy və anormalliqların aradan qaldırılması, böyük həcmli verilənlərin idarə edilməsi, əlaqəsiz atributların müəyyən edilməsi və çıxarılması və s. Daha sonra verilənlərin hasilatı (yığılması) prosesidir ki, bu da nümunələr və ya məlumatlar istehsal edəcək verilənlərin hasilatı alqoritminin tətbiqini həyata keçirir. Son addımda emaldan sonra - bütün aşkar edilmiş nümunələr və ya məlumatlar arasında tətbiqetmə üçün faydalı olanlar müəyyən edilir. Doğru qərarı vermək üçün istifadə edilə biləcək bir çox qiymətləndirmə və vizuallaşdırma üsulu var. Tipik məlumat hasilatı layihəsinin prosesi şəkil 2.3.1-də göstərilmişdir.



Şəkil 2.3.1. Tipik məlumat hasilatı layihəsinin prosesi

Proqnozlaşdırıcı alqoritmlər-bu alqoritmlər ümumiyyətlə bir sıra giriş və çıxış müşahidələrinə, reqressiya modelləşdirmə, qərar diaqramları, neyron şəbəkələri, Bayes öyrənmə alqoritmlərinə və s. əsaslanan funksiyanı yaradır [71, s.59].

Verilənlərdən məlumatın alınmasının ümumi prosesi verilənlərin emaldan əvvəl verilənlərin hasilatı və verilənlərin hasilatı nəticələrinin emaldan sonrakı proseslərini əhatə edir. Məlumatı kəşf etmə prosesi real vaxt təhlili və qərar dəstək sistemləri ilə adaptiv proqnozlaşdırıcı təhlilini əlaqələndirməlidir. Nadir hadisələrin prekursorlarını və ölçülərini aşkarlamaq və real vaxtda kütləvi və fərqli məlumatlarla dəyişmək çətin prosesdir. Proqnozlaşdırıcı modelləşdirmənin məqsədi əvvəlcədən toplanmış məlum nümunələrə əsaslanaraq hədəf keyfiyyətinin gələcək dəyərlərini proqnozlaşdırmaq üçün istifadə edilə bilən model yaratmaqdır. Qərar ağacı əsaslı, qayda əsaslı, logistika, reqressiya, süni neyron şəbəkələri, qrafik metodlar və s. daxil olmaqla bir çox proqnozlaşdırıcı modelləşdirmə üsulu mövcuddur. Bu metodlar iki növ proqnozlaşdırıcı modelləşdirmə tapşırıqlarını həll etmək üçün hazırlanmışdır: təsnifat və reqressiya. Bu proqnozlaşdırma modellərindən istifadə edərək ölçmələri haqqında məlumat verilməli olan sensorların sayı həm qovşaq aktivliyini, həm də xəttin enini azaldır. Sensor verilənləri verilənlərin toplanması, saxlanması, emalı və klasterləşdirməsi (qruplaşdırma), təsnifatı kimi metodlar daxilində çoxsaylı çətinliklərə səbəb olur və təcrid olunmuş hissənin aşkarlanması hərəkətli məlumatları əldə etmək üçün sensora tətbiq olunur. Bir tərəfdən, ümumiyyətlə məkan və zaman ilə ölçülən fərqli məlumatların böyük həcmləri real vaxtda yaradılır. Digər tərəfdən, yanğın kimi ortaya çıxan çətinliklər qarşısında daha sürətli və daha etibarlı qərarlara

ehtiyac sürətlə artır. Böyümüş təhlükənin tanınmasının kritik yollarından biri, strateji olaraq yerləşdirilmiş geniş ərazi sensor şəbəkələrindən əldə edilən dinamik, heterogen məlumatlara əsaslanan onlayn məlumatın əldə edilməsidir. Bəzi tətbiqetmələrdə yaranan kütləvi sensor məlumat axınları, bütün verilənləri əsas yaddaşda saxlamalı olan alqoritmlərin istifadəsini mümkünsüz edir. Böyük verilənlər çoxluğunda nümunələrin aşkarlanması prosesində verilənlərin hasilatı üsullarından istifadə etmək o qədər də asan olmur. Seçilmiş məlumat növləri üçün uyğun alqoritm tapılmadan əvvəl prosesə bir neçə alqoritm tətbiq olunmalıdır. Onlayn alqoritmlər belə böyük verilənlər çoxluğunu idarə etmək üçün adi toplu alqoritmlərə cəlbedici alternativ təqdim edir. Düzgün verilənlər hasilatı alqoritminin seçilməsi yalnız tətbiqetmə hədəfindən deyil, həm də verilənlər çoxluğunun uyğunluğundan asılıdır.Verilənlərin hasilatının araşdırılması üçün girişi hazırlamaq ümumiyyətlə bütün verilənlərin hasilatı prosesinə qoyulan səylərin böyük hissəsini sərf edir. Verilənlərin emalı çox əmək tələb edən bir prosedurdur, lakin verilənlərin uğurlu hasilatı üçün zəruri addımdır. Yaşayış yerindəki yanğın kimi kritik hadisələrin erkən aşkarlanması, həyatın xilas edilməsi və potensial zərərlərin azaldılması üçün çox vacibdir, buna görə simsiz sensor şəbəkələri yanğının baş vermis olduğunu və ya baş verməkdə olduğunu aşkar edə bilməlidir.

Şəkil 2.3.2-də göstərilən sxem iki alt sxemdən ibarətdir: Oflayn proqnozlaşdırma təhlili (verilənlərin inteqrasiyası, nümunələrin aşkarlanması və prosesin aşkarlanması); onlayn qərar qəbuletmə (modellər və müşahidələrin onlayn (real vaxtda) təhlili, sensor müşahidələrinin, dinamik, paylanmış emalı üçün alqoritmik effektivlik, möhkəmlik, həssaslıq və müşahidələrin təsirləri, vizuallaşdırma və qərar və ya köməkçi modelləri daxildir).



Şəkil 2.3.2. Məlumatın əldə edilməsinə kompleks yanaşma

Ancaq insan tərəfindən tanınan bir çox hadisələr kimi, fenomen yanğının da sensor qovşağı üçün heç bir funksiyası yoxdur. Buna görə də hadisələri sensor qovşaqlarının "anlaya biləcəyi" şəkildə təsvir etməyə imkan verən uyğun üsullara ehtiyac var [10, s.346]. Bunlardan biri qeyri-səlis üsuldur. Qeyri-səlis məntiqin simsiz sensor şəbəkələrində istifadəyə uyğunluğu insan düşüncə tərzinə dəqiq məntiqdən daha çox yaxın olması və ehtimal nəzəriyyəsinə əsaslanan digər təsnifat alqoritmləri ilə müqayisədə daha intuitiv və istifadəsinin daha asan olmasıdır. O, dəyişənləri rəqəmlərlə deyil, təbii və ya süni dildə sözlər və ya cümlələr olan dil dəyişənlərindən istifadə etməklə müəyyənləşdirməyə imkan verir. Qeyri-səlis qaydalar Əgər-Onda şəklində şərti ifadələrdir. Bu qaydalar adi riyazi hesablama metodlarından daha az hesablama gücü tələb edir, son nəticəni çıxarmaq üçün az məlumat nümunəsi tələb edir. Ən əsası, problemləri izah etmək üçün linqivistik termlərdən istifadə etdikləri və qeyri-səlis məntiq sahəsində qaydaların yaradılmasını əvvəlki məlumatlardan asılı olmayaraq sadə hala gətirdiyi üçün effektiv şəkildə manipulyasiya edilə bilər (əsasən sistemin ekspert biliklərindən qaynaqlanan evristik məlumatlara əsaslanaraq). İlk təcrübədəki giriş verilənləri, əsasən, yanğını aşkarlama sistemləri haqqında ekspert biliklərindən irəli gələn evristik məlumatlara əsaslanan Əgər-Onda (If-Then) qaydaları kimi müəyyən edilir. Başqa sözlə, yanğının aşkarlanması istilik detektorunun ardıcıl olaraq ölçülmüş iki dəyərinə əsaslanır. Sabit temperatur istilik detektoru, qorunan ərazidəki temperatur əvvəlcədən müəyyən edilmiş bir səviyyəyə çatdıqda (məsələn, 57 ºC, 63 ºC, 74 ºC və ya 90 ºC) həyəcan vəziyyəti yaradan temperaturu ölçmə elementindən istifadə edir. Qeyri-səlis məntiqdə bu dəqiq qiymətlərdən istifadə etmək əvəzinə linqvistik termlərdən istifadə edilir. Şəkil 2.3.3-də (a) giriş dəyişənlərinin əvvəlki temperatur və cari temperaturu və (b) yanğın vəziyyətinin çıxış dəyişənin mənsubiyyət funksiyaları göstərilmişdir.



Şəkil 2.3.3 a) giriş dəyişənlərinin əvvəlki temperatur və cari temperatur



Şəkil 2.3.3 b) yanğın vəziyyətinin çıxış dəyişənin mənsubluq funksiyaları

Buna görə də, təcrübə məqsədi ilə qeyri-səlis texnikaya və yuxarıda göstərilən hədlərə uyğun olaraq temperatur detektorundan alınan verilənlər linqvistik termlərlə ifadə olunur: çox aşağı (ÇA), aşağı (A), orta (O), yüksək (Y) və çox yüksək (ÇY). Yanğın verilənlər testi cədvəl 2.3.1 göstərilmişdir.

Cədvəl 2.3.1

Verilənlər testi (ilk 10 qayda)

Əvvəlki temperatur	Cari temperatur	Yanğın ehtimalı
ÇA	ÇA	ÇA
ÇA	A	A
ÇA	O	O
ÇA	Y	O
ÇA	ÇY	Y
A	ÇA	ÇA
A	A	A
A	O	O
A	Y	Y
A	ÇY	ÇY

Yanğının aşkarlanması üçün istifadə olunan əlaqəli çıxış sensor verilənləri nominal dəyərlərə çevrilir. İlk 10 ölçülmüş dəyər və çevrilmiş çıxış verilənləri cədvəl 2.3.2-də təqdim olunur.

Cədəvl 2.3.2

2-ci yanğın verilənlər testi (ilk 10 ölçmə)

Əvvəlki temperatur	Cari temperatur	Yanğın ehtimalı	Yanğın ehtimalı nominal
19.4	19.4	19.98	ÇA
19.4	21.95	22.03	A
21.95	23.87	23.96	A
23.87	31.51	36.37	A
31.51	35.44	40.35	O
35.44	46.54	61.41	Y
46.54	55.49	75.53	Y
55.49	62.08	81.37	ÇY
62.08	53.17	69.49	Y
53.17	44.27	58.6	O

Beləliklə, yanğının aşkarlanması şəkil 2.3.4-də göstərilən ardıcıl olaraq ölçülmüş 26 temperaturlu detektorun dəqiq məlumatlarına əsaslanır.



Şəkil 2.3.4. Əvvəlki və cari temperaturun ölçülmüş dəyərləri və təcrübədə göstərilən qaydalardan istifadə edərək yanğın ehtimalı

Yanğın aşkarlama tətbiqetmələrində yarana biləcək böyük həcmdə sensor məlumat axını, bütün verilənləri əsas yaddaşda saxlamalı olan alqoritmlərin istifadəsini mümkünsüz edir. Bu məqsədlə tam qayda bazasında yanğının aşkarlanması üçün qeyri-səlis qaydalardan ibarət olan qeyri-səlis nizamsız qayda induksiya alqoritmi yaradılır. Digər dörd seçilmiş alqoritm, yanğını aşkar etmə halında, böyük həcmdə sensor verilənlərində gizlənmiş faydalı məlumatları üzə çıxaran ən yaxşı proqnozlaşdırma modellərini yaratmaq məqsədi ilə qeyri-səlis nizamsız qayda induksiya alqoritmi istifadə edərək alınan nəticələrlə müqayisə ediləcəkdir. Klasterləşdirmə (qruplaşdırma) ən çox istifadə olunan məlumat axtarışı alqoritmidir və tədqiqat verilənlərinin təhlili olaraq istifadə olunur, reqresiya və ya təsnifat kimi digər verilənlərin hasilatı üsullarına daxil edilir [79, s.49]. Beləliklə, müqayisəli analiz qeyri-səlis nizamsız qayda induksiya, qərar ağacı klassifikatoru, sadə Bayes klassifikatoru, dəstək vektor metodu, sinir şəbəkə klassifikatoru alqoritmlərinə əsaslanır. Qeyri-səlis nizamsız qayda induksiya alqoritmi sadə və aydın qayda çoxluqları kimi üstünlüklərini qoruyaraq alqoritmi genişləndirən qeyri-səlis qayda əsaslı təsnifat metodudur. Bundan əlavə, bu metod bir sıra dəyişikliklər və əlavələri özündə ehtiva edir. O, adi sərt qaydalar yerinə qeyri-səlis qaydaları, eləcə də qayda siyahısı əvəzinə nizamsız qaydanı əldə edir. Məqsəd mövcud qaydaları nümunəni əhatə edənədək ümumiləşdirməkdir. Qərar ağacı klassifikatoru, bir sıra xüsusiyyətlər seçib giriş verilənlərini onlarla müqayisə edən və əsas üstünlüyü

təsnifat sürəti olan ağac əsaslı klassifikatordur. Öyrənilən nümunələr ağac kimi təmsil olunur, ağacdakı qovşaqlar xüsusiyyətlərin dəyərlərinə əsaslanır və ağacın yarpaqları qərarları təmin edir [133, s.568]. Hər sinif dəyəri üçün Sadə Bayes klassifikatoru (Bayes teoreminə əsaslanaraq), verilmiş nümunənin bu sinifə aid olma ehtimalını qiymətləndirir. O, statistik klassifikatordur və ehtimal olunan proqnozu həyata keçirir, yəni sinif mənsubluğu ehtimallarını proqnozlaşdırır. Sadə Bayes klassifikatoru, qərar ağacı və seçilmiş neyron şəbəkəsi klassifikatorları ilə müqayisə edilə bilən performansa malikdir. Hər bir təlim nümunəsi fərziyyənin doğru olma ehtimalını tədricən artıra və ya azalda bilər - əvvəlcədən biliklər müşahidə edilmiş məlumatlarla birləşdirilə bilər. Bayes metodları hesablama baxımından çətin olsa belə, optimal qərar standartı təmin edə bilər. Sadə Bayes ehtimallı bilikləri təmsil etmək, istifadə etmək və öyrənmək üçün aydın semantikası ilə sadə yanaşmanı təmin edir və effektiv nəticələr əldə edə bilər. Dəstək vektor metodu klassifikatoru giriş verilənlərindən funksiyalar yaradaraq fəaliyyət göstərirlər. Bu funksiya təsnifat funksiyası kimi istifadə olunur. Onlar, mümkün olan girişlər sahəsindəki hiper səth taparaq fəaliyyət göstərirlər. Bu hiper səth, müsbət nümunələri mənfi nümunələrdən, yəni, aşağını yüksəkdən bölür. Giriş verilənlərinin ölçülülüyü yüksək olarsa, dəstək vektor metodu hazırlıq üçün daha çox vaxt tələb edir. Neyron şəbəkə klassifikatoru bir çox nümunə tanıma məqsədi üçün istifadə olunur. O, şəbəkəni hazırlamaq üçün əks əlaqə alqoritmindən istifadə edir. Neyron şəbəkəsi klassifikatorlarının dəqiqliyi hazırlıq verilənlərinin ölçülülüyündən asılı deyil [128, s.68]. Neyron şəbəkəsi klassifikatorunun zəifliyi aşağıdakı kimi nəticələnə bilər: empirik olaraq ən yaxşı şəkildə təyin olunan bir sıra parametrlər tələb edən, uzun hazırlıq müddəti və zəif şərh edilə bilmə. Bu klassifikatorların digər tərəfdən gücü aşağıdakılardır: səs-küylü verilənlərə qarşı yüksək dözümlülük, hazırlanmamış nümunələri təsnif etmək bacarığı, davamlı dəyərli giriş və çıxış üçün uyğunluğu, böyük həcmli verilənlərdə uğurlu olması və s.

FƏSİL 3. QEYRİ- SƏLİS AQREQASİYA MODELİNİN İŞLƏNİLMƏSİ

3.1.Müxtəlif tipli qeyri-səlis verilənlərin modelləşdirilməsi və aqreqasiyası

Müxtəlif tipli qeyri-səlis verilənlərin modelləşdirilməsi və aqreqasiyası, qeyri-səlis obyektlərin aqreqasiyası metodları işlənib hazırlanmışdır. Buna nümunə olaraq MATLAB mühitində robotun hərəkət sensorunun simulyasiyasına baxılmışdır. Bu robotlarda qeyri-səlis məntiq sistemində qurulmuş mikrokontrollerdə giriş və çıxış parametrləri arasındakı əlaqə müəyyənləşdirilir. Robot qeyri-səlis məntiq ilə maneələrdən yayınmağa çalışır. Maneələr robotun önündə, solunda və sağındadır. Ona görə də 3 giriş parametri, kəmiyyəti var [93, s.23]. Çıxışda soldan səs siqnalı obyektə göndərilir və geri qayıtmasına sərf olunan zamanı hesablamaqla məsafə ölçülür. Bu məsafəyə uyğun çıxış kəmiyyəti var. Bütün çıxışların cəmi sonda görünür, aqreqasiya yerinə yetirilir. Nəticənin emalı Əgər-Onda (If-Then) ifadələri ilə təşkil olunan qaydaların işlənməsi ilə başlayır. Qaydanın əvvəlki və ya şərt bloku Əgər (If) ifadəsi ilə, nəticə və ya nəticə bloku isə Onda (Then) ifadəsi ilə müəyyən olunur. Nəticə blokuna verilən dəyər, qeyri-səlis çoxluqların sərhədlərini xarakterizə edən əvvəlki mənsubiyyət funksiyalarının aktivasiya qiymətlərinin məntiqi cəminə bərabərdir. Aktivasiya qiyməti, qiymətləndirmə anında giriş dəyişənlərinin kəsişdiyi mənsubiyyət funksiyasının qiymətinə bərabərdir. Məntiqi nəticə və ardıcıl mənsubiyyət funksiyaları ilə təmsil olunan qeyri-səlis qiymətləri sabit və dəqiq nəticəyə çevirmək üçün defazzifikasiya əməliyyatı aparılır [81, s.361]. Defazzifikasiya bir neçə yolla həyata keçirilə bilər. Əksər tətbiqetmələr, ardıcıl qeyri-səlis çoxluqda kütlə mərkəzi və ya qeyri-səlis sentroid hesablama həyata keçirir. Məsafə sol, məsafə irəli, məsafə sağ vəziyyətində çıxış sürəti və dönmə istiqamətinin fazzifikasiyası göstərilmişdir [93, s.21-25].

Softkomputinq texnologiyalarında ən çox yayılmış Əgər-Onda qeyri-səlis münasibətlərdə qeyri-səlis çoxluqların arasındakı asılılıqlar ekspertlər tərəfindən hazırlanan qaydalar əsasında yerinə yetirilir və tədqiq olunur [74, s.191]. Aqreqasiya

olunmuş nəticə qaydalar şəklində göstərilən hər bir qayda üçün doğruluq müəyyənləşdirildikdən sonra alınır. MATLAB mühitində qurulmuş qeyri-səlis kontrollerin ümumi interfeysini şəkil 3.1.1-dəki kimi göstərə bilərik.



Şəkil 3.1.1 MATLAB-da qurulmuş qeyri-səlis kontrollerin ümumi interfeysi

Bu qaydalardan istifadə edərək MATLAB mühitində giriş və çıxış kəmiyyətlərinin fazzifikasiyasına baxaq.

Giriş kəmiyyəti "Məsafə İrəli"-nin fazzifikasiyası şəkil 3.1.2-də göstərilmişdir.



Şəkil 3.1.2. Giriş kəmiyyəti "Məsafə_İrəli" nin fazzifikasiyası

Giriş kəmiyyəti "Məsafə Sağ"-ın fazzifikasiyası şəkil 3.1.3-də göstərilmişdir.



Şəkil 3.1.3 Giriş kəmiyyəti "Məsafə_Sağ" nin fazzifikasiyası

Çıxış kəmiyyəti "Sürət"-in fazzifikasiyası şəkil 3.1.4-də göstərilmişdir.



Şəkil 3.1.4 Çıxış kəmiyyəti "Sürət "in fazzifikasiyası

Şəkil 3.1.5-də çıxış kəmiyyəti "Dönmə bucağı"nın fazzifikasiyası göstərilmişdir.



Şəkil 3.1.5 Çıxış kəmiyyəti "Dönmə bucağı"nın fazzifikasiyası

MATLAB mühitində robotun hərəkət sensorunun simulyasiyasını göstərən qaydalar ekspertlər tərəfindən irəli sürülür. Robotun hərəkət sensorunun simulyasiyasını göstərən 25 qayda aşağıdakı kimi təşkil edilmişdir:

1. Əgər (Məsafə Sola Yaxın) və (Məsafə irəliyə Yaxın) və (Məsafə Sağdan Ortadadırsa), Onda (Sürət aşağı, Dönmə istiqaməti Soladır).
2. Əgər (Məsafə Sola Yaxın) və (Məsafə irəliyə Yaxın) və (Məsafə Sağdan Uzaqdırsa), Onda (Sürət Aşağı, Dönmə istiqaməti Sağadır).
3. Əgər (Məsafə Sola Yaxın) və (Məsafə irəlidən Orta) və (Məsafə Sağdan Ortadırsa),Onda (Sürət Aşağı, Dönmə istiqaməti is Yarımsağ).
4. Əgər (Məsafə Sola Yaxın) və (Məsafə irəlidən Orta) və (Məsafə Sağdan Uzaqdırsa), Onda (Sürət Aşağı, Dönmə istiqaməti Yarımsağ).
5. Əgər (Məsafə Sola Yaxın) və (Məsafə irəlidən Uzaq) və (Məsafə Sağdan Ortadırsa), Onda (Sürət Aşağı, Dönmə istiqaməti Yarımsağ).
6. Əgər (Məsafə Sola Yaxın) və (Məsafə irəlidən Uzaq) və (Məsafə Sağdan Uzaqdırsa), Onda (Sürət Aşağı, Dönmə istiqaməti Yarımsağ).
7. Əgər (Məsafə Soldan Orta) və (Məsafə irəliyə Yaxın) və (Məsafə Sağa Yaxındırsa), Onda (Sürət Aşağı, Dönmə istiqaməti Sol).
8. Əgər (Məsafə Soldan Orta) və (Məsafə irəliyə Yaxın) və (Məsafə Sağdan Ortadadırsa), Onda (Sürət Aşağı, Dönmə istiqaməti Sol).
9. Əgər (Məsafə Soldan Orta) və (Məsafə irəliyəYaxın) və (Məsafə Sağdan Uzaqdırsa), Onda (Sürət Aşağı, Dönmə istiqaməti Sağ).
10. Əgər (Məsafə Soldan Orta) və (Məsafə irəlidən Orta) və (Məsafə Sağa Yaxındırsa), Onda (Sürət Asaği, Dönmə istiqaməti Sol).
